HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 50 (3466) Cümə axşamı / 29 dekabr 2022-ci il Qiymәti 40 qәpik

# 2023-də bizi gözləyən yeniliklər

*Artıq 2022-ci ilin başa çatmasına sayılı günlər qalır. Yeni ilə qədəm qoymağımız həm də yeni qanun və qaydaların qüvvəyə minməsi deməkdir. Bəs görəsən, 2023-ci ildə vətəndaşları hansı yeniliklər gözləyir? Əvvəlcə ondan başlayaq ki, 2023-ci il yanvarın 1-dən yeni büdcə sənədi qüvvədə olacaq. Yeni ilin əsas maliyyə sənədi də əvvəlki illərdə olduğu kimi, sosialyönümlü olacaq. Başqa sözlə, dövlət büdcəsinin sosialyönümlüyünün davam etdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi prioritet istiqamət olaraq saxlanılacaq. Büdcədə xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi üçün 2023-ci il yanvarın 1-dən əməkhaqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin, həmçinin digər sosial ödənişlərin artırılmasının qarşıya mühüm vəzifələr kimi qoyulması bunun bariz ifadəsidir.*



## Sosialyönümlü xərclər artırılıb

**Məlumat üçün bildirək ki, 2023-cü ilin dövlət büdcəsi layihəsində gəlirlər 30 773 978 min manata, büdcə xərcləri isə 33 353 278 min manata çatdırılıb.**

Büdcə layihəsində sosialyönümlü xərclər ümumilikdə 1 milyard 289.2 milyon manat artırılaraq 15 milyard 218.9 milyon manata çatdırılıb. Bu, dövlət büdcəsi xərclərinin 45.7 faizini təşkil edir. İşğaldan azad edilmiş ərazilərin bərpası və bu ərazilərdə əhalinin məskunlaşması üçün şəraitin yaradılmasına ayrılan xərclər 330 milyon manat artırılaraq 3 milyard manata, ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması, habelə hüquq-mühafizə orqanları üçün ayrılan xərclər 495.9 milyon manat artırılaraq 8 milyard 062.9 milyon manata çatdırılıb. Bununla yanaşı, təhsil xərclərinin 4 milyard 423 milyon manat, səhiyyə xərclərinin 1 milyard 906 milyon manat olacağı proqnozlaşdırılır. Əməyin ödənişi xərclərinin 420 milyon manat, məqsədli kənd təsərrüfatı tədbirləri, ərzaq təhlükəsizliyi üçün ayrılan xərclərin isə 350 milyon manat artırılması planlaşdırılır. Həmçinin 2023-cü ildə dövlət büdcəsindən dotasiya almayacaq rayonların sayı 6 rayon artaraq 57-yə çatacaq.

Qeyd edək ki, müstəqillik tariximizin ən böyük büdcə xərclərinin 25,3 faizi və yaxud 8 milyard 419 milyon manatı dövlət sərhədlərimizin bərpası və etibarlı mühafizəsinin daha da möhkəmləndirilməsi, ordumuzun müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin gücləndirilməsi, Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma tədbirlərinin maliyyə təminatının yaradılması üçün nəzərdə tutulub. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə bağlı xərclər Azərbaycan Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın ehtiva etdiyi məqsədlərin reallaşdırılması çərçivəsində maliyyələşdiriləcək. 2023-cü ildə strategiya çərçivəsində qarşıya qoyulan hədəflərin yerinə yetirilməsi üçün ayrılan 5 milyard 244 milyon manat həcmində vəsaitin 60 faizi Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işlərinə yönəldiləcək.



## Pensiyaların hesablanmasında ayrı-seçkilik aradan qaldırılacaq

**Yeni ildən əmək pensiyalarının indeksləşdirilməsində yol verilən ayrı-seçkilik aradan qaldırılacaq. Bu, "Əmək pensiyaları haqqında" qanuna təklif olunan dəyişikliklər sayəsində mümkün olacaq.**

Bütün növ əmək pensiyaları hər ilin əvvəlində vahid qaydada indeksasiya edilərək artırılacaq. Digər bir dəyişiklik isə Prezidentin ötənilki sərəncamı ilə pensiyalara 200 manatlıq əlavələrin də ümumi pensiya məbləğinə daxil edilərək birgə indeksasiya olunub artırılması ilə bağlıdır. Gələn il üçün pensiyaların artımı bu il ərzində qeydə alınmış orta aylıq əmək haqqının artım faizi ilə müəyyən ediləcək. Orta aylıq əmək haqqında artım faizini isə Dövlət Statistika Komitəsi müəyyənləşdirəcək. Bundan başqa, qulluq stajına görə pensiya alan şəxslərin təqaüdləri də hər il orta illik əmək haqqının artım fazinə görə indeksləşdiriləcək. Yeni dəyişiklər təklifi bu sahədə inzibatçılığın yüngülləşdirilməsinə və əmək haqqı artımı ilə bağlı hər hansı məlumat təqdim etmə öhdəliyinin aradan qalxmasına imkan verəcək. Azərbaycanda uşağın anadan olması və dəfn üçün verilən müavinətlərin məbləğinin artırılması təklif edilir. Bu, Hesablama Palatasının DSMF-nin gələn il üzrə büdcəsi ilə bağlı rəyində əksini tapıb. Səh. 3

MÜSAHİB

## "Bu gün hamımız qərbi azərbaycanlıyıq..."



**Musa Quliyev,**
Milli Məclisin deputatı

*Azərbaycan Dövləti Qarabağı, Şərqi Zəngəzuru düşməndən azad etdikdən sonra, tarixin müxtəlif dövrlərində böyük güclərin diqtəsi, erməni məkri ilə öz yurdundan qovulan, deportasiyalara məruz qalan minlərlə azərbaycanlının öz torpaqlarına qayıdışını, öz tarixini qorumağı hədəfləyir. Bu gün Azərbaycan Dövləti və xalqı tarixi Zəngəzura gedən yolun astanasındadır və atılan növbəti addım vaxtilə Azərbaycandan qoparılaraq üzərində Ermənistan yaradılan tarixi Qərbi Azərbaycana qayıdışı hədəfləyir.*

*Biz hədəfə doğru mərhələ-mərhələ gedib, öz tərəfdarlarımızı artırmaqla beynəlxalq səhnəyə çıxmalıyıq...*

Səh. 3

MÜSAHİB



**Azay Kərimov,**
Qarabağ qazisi,
ehtiyatda olan polkovnik

■ O aksiyada öncə Qarabağ bölgələrinin, Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın və s. hökumət və qeyri-hökumət qurumları iştirak etməlidir

■ Erməni kəndliləri bilsə ki, yenə sovet dövründən yaşadığı kənddə qalıb torpaqlarını sərbəst əkib-becərəcəklər, məmnuniyyətlə Azərbaycan vətəndaşlığını qəbul edəcəklər

■ Biz kiçik qruplarla Şuşanın kəndlərinə də sızıb orada mövqelərimizi, postlarımızı qurmalıyıq... Səh. 2

GÜNÜN FOTOSU...



ABŞ-da buz bağlayan evlər

GÜNÜN SİTATI

"Naxçıvanın müdafiə potensialı daha da gücləndiriləcək"



**Fuad Nəcəfli,**
Naxçıvan MR-da Prezidentin səlahiyyətli nümayəndəsi

KARİKATURA



Düşmənin qalıqları

## Fransanın Azərbaycan əleyhinə oyunları davam edir

**Asim Mollazadə,**
Milli Məclisin deputatı

Erməni diasporuna daimi münaqişə lazımdır ki, hansısa faciələri yaradaraq Ermənistan üçün maliyyə toplasınlar. Səh. 4

STATİSTİKA



**■ Son dörd ildə ölkəmizdə minimum pensiya 2.2 dəfə, orta aylıq pensiya 80 faiz, sosial müavinət və təqaüd ödənişləri 3.5 dəfə artıb.**

Bu dövrdə 10-dan çox yeni sosial ödəniş növü təsis olunub, sosial təminat sisteminin əhatə dairəsi daha da genişlənib. Ümumilikdə 2023-cü ildə pensiya ödənişlərinə 2022-ci ilin müvafiq göstəricisinə nisbətən 650 milyon manat və ya 12 faiz çox vəsait yönəldilməsi nəzərdə tutulur.



Səh. 6

## Dünya Ukrayna müharibəsi ilə silkələndi

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri Rəhman Sahib oğlu Mustafayev iqamətgahı Haaqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

***

**Əsgər Həsən oğlu Abdullayev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini vəzifəsindən azad edilib.**

Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Dövlət başçısının digər Sərəncamı ilə İqbal Alıcan oğlu Babayev də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini vəzifəsindən azad edilib.

***

**Mahir Məmməd oğlu Əliyev Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

***

**Rəşad Fail oğlu İsmayılov Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

***

**Natiq Telman oğlu Şirinov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini təyin edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

## Bakıda 5 saylı DOST Mərkəzi istifadəyə verildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlət başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirildi ki, Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi, 31 ünvanında yerləşən dördmərtəbəli mərkəzin ümumi sahəsi 4405 kvadratmetrdir. Mərkəz modern və konstruktiv üslubda layihələndirilib, mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir.

Mərkəzdə 120 nəfərə yaxın işçi heyəti çalışacaq və "Könüllü DOST" proqramı üzrə 50 nəfər könüllü fəaliyyət göstərəcək. Burada gün ərzində 650-700 vətəndaşa xidmətin göstərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirən, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək istiqamətində əhəmiyyətli dəyişikliyə səbəb olan DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyi bu gün məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 12 istiqamət üzrə 153 xidmət göstərir. Bu günədək istifadəyə verilmiş 5 DOST Mərkəzində ümumilikdə 1 milyon 250 mindən çox şəxsə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,2 faiz təşkil edir. Azərbaycan Prezidentinin idarəçilik fəlsəfəsi ilk növbədə sosial dövlət strategiyasına söykənir. Postmüharibə dövründə də sosial sahədə, o cümlədən DOST mərkəzləri vasitəsilə həyata keçirilən tədbirlər dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir. Beləliklə, istifadəyə verilən növbəti DOST Mərkəzi sosial xidmətlər sahəsində daha böyük ərazini və daha çox əhalini əhatə etməklə keyfiyyətli xidmətin coğrafiyasının genişlənməsinə şərait yaradacaq.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Xankəndidən Ermənistana gizli yol var

***Tanınmış Qarabağ qazisi, ehtiyatda olan polkovnik Azay Kərimovla hafta.az üçün bu dəfəki söhbətimizdə Laçın-Şuşa-Xankəndi yolunda artıq 3-cü həftədir ki, davam edən məlum aksiya, Rusiya "sülhməramlı" kontingentinin Şuşa-Laçın yolunu bağlı saxladığı halda ermənilərin Xankəndindən digər gizli avtomobil yoluyla Ermənistanla əlaqə saxlamaq ehtimalı, Azərbaycan dövləti Xankəndindəki Rusiya və ya Fransadan idarə olunan separatçı-terrorçu xislətli liderlərin, təşkilatçıların zərərsizləşdirilməsinə nail olacağı halda yerdə qalacaq 10-15 min erməninin Azərbaycan qanunlarına, Konstitusiyasına tabe olub-olmayacağı və s. haqda danışdıq.***

## Müsahib

***- Azay bəy, Laçın-Şuşa-Xankəndi yolunda artıq 3-cü həftədir ki, davam edən məlum aksiyanı necə dəyərləndirirsiz?***

- O aksiyanı, orada həftələrlə duruş gətirən fədakar insanlarımızı alqışlayıram. Tələblərimiz kifayət qədər haqlı və ədalətli tələblərdir. Amma bir məsələyə diqqət çəkmək istəyirəm. Şuşadakı aksiyanın video-yayımına baxıram; iştirakçıların çoxu gənc oğlan-qızlardır, tələbələrdir... Yəni sözüm ondadır ki, o aksiyada öncə Qarabağ bölgələrinin, Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın və s. hökumət və qeyri-hökumət qurumları iştirak etməlidir. Şuşa İcra Hakimiyyəti, Şuşa teatrı, Şuşa kitabxanası... Zəhmət çəksinlər kollektivlərini yığıb gedib Şuşadakı- öz doğma torpaqlarındakı aksiyaya dəstək versinlər... Prezidentin heç nə sizlərin, nə də mənim onu təbrik etməyimizə ehtiyacı yoxdur. Dövlət, xalq, Vətən üçün əməli iş lazımdır... 30 ildi hamınız demirdiniz ki, Şuşanı azad edin, gedək Şuşaya, bəs niyə getmirsiz?.. Mən özüm şəxsən lazımi qurumlara müraciət etmişəm ki, nə vaxt gərək olsa, mən də Şuşadakı aksiyaya yerindəcə dəstək verməyə hazıram...

***- Xankəndində Putinin milyarder "desantı" Ruben Vardanyanın təşkilatçılığıyla ən azı 15 min erməninin iştirakıyla dekabrın 25-də Azərbaycan əleyhinə keçirilmiş son mitinqdən sonra ictimaiyyətdə bir neçə sual yarandı: Gorus-Laçın-Şuşa-Xankəndi yolu faktiki bağlı olduğu halda separatçı rejim bu sayda mitinqçini necə toplaya bildi? Və yaxud: dekabrın 21-də Vardanyan tərəfindən təyin olunmuş xuntanın yeni qondarma "səhiyyə naziri" Samvel Avetisyan Ermənistanda yaşadığı halda Xankəndinə necə gəlib çıxdı?.. Siz həmin ərazilərə həm yerli sakin, həm də keçmiş döyüşçü, hərbçi kimi yaxşı bələdsiniz. Xankəndindən Şuşa-Laçın yoluna birləşən başqa bir ehtiyat, işlək yol varmı?***

- Bəli, mən həm Şuşada polis işləyəndə, həm də Malıbəylidə könüllü tabor komandiri, Şuşada kəşfiyyat rəisi olandan sonra ətraf əraziləri qarış-qarış gəzdiyimdən o yerlərə yaxşı bələdəm... Xankəndindən Laçın istiqamətinə əsas yoldan əlavə, ümumiyyətlə, daha 2 yol çıxır. Biri ilə Xocalı rayonunun Kosalar kəndinin arxa tərəfindən Qırxqız dağının, Meşəli kəndinin yanından keçib Laçının Arduclu kəndinə çıxmaq olur. Bu, keçmişdən qalan at, araba yoluydu... Digər asfalt olmasa da, sanki təbiətin özünün yaratdığı, qışda-yazda palçıq olmayan daş avtomobil yolu isə Xankəndindən əvvəlcə Kərkicahan kəndinə çıxır, 1 km-dən sonra Xəlifəli, sonra isə Şırlan kəndi gəlir. Şirlan kəndindən cıxan kimi isə yol ayrıcı var; biri sağa - Laçının Arduşlu kəndinə, oradan da Laçına çıxır. Sol tərəfə burulanda isə təxminən 1 km-dən sonra Laçının Fingə kəndinin yaxınlığına, oradan da təxminən 500 metrdən sonra Xankəndi-Şuşa-Laçın yoluna, yəni Şuşanın Turşsu qəsəbəsinin alt hissəsinə, şüşə kimi asfalt yola cıxmaq mümkündür. Bu marşrut isə hec bir maneə olmadan Şuşanın Onverst, Kiçik və Böyük Qaladərəsi kəndlərindən keçən yeni çəkilmiş alternativ yolla düz İrəvana kimi gedir. Dediyimiz yolun Şuşa-Laçın-Gorus yoluna birləşdiyi həmin ərazi hal-hazırda ekoloji etirazçılarımızın dayandıqları yerdən 60 km arxadadır. Yuxarıda sadaladıqlarım, adlarını cəkdiyim kəndlərin hamısı Azərbaycan kəndləridir və oralarda hələlik hec kim yaşamır. Və həmin ərazidən keçən yollara nə Azərbaycan ordusu, nə də "sülhməramlı"lar ciddi nəzarət edə bilir. Rus hərbçilər görsələr də, buna göz yummaları mümkündür... Bax, Arayik, Vardanyan və digərləri aksiyaçılarımızın görə bilmədiyi arxa ərazidən keçərək Xankəndindən İrəvana və əksinə, bu yolla gedib-gəlirlər. Bu yolla uzun ölçülü "TIR" tipli maşınlar hərəkət edə bilməsə də, "KaMAZ" "Ural", "ZİL" maşınlar üçün daha uygundur. "UAZ", salonlu "UAZ" və "CİP", "NİVA" tipli maşınlar isə yetərincə surətlə hərəkət edə bilərlər. Və əlbəttə, ciddi ehtiyac olanda həmin yolla Xankəndinə silah-sursat da, canlı qüvvə də, yaxud mitinqdə iştirak etmək üçün Vardanyanın sponsorluğuyla Ermənistandan bir neçə günə minlərlə erməni də daşıya bilərlər...

*O aksiyada öncə Qarabağ bölgələrinin, Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın və s. hökumət və qeyri-hökumət qurumları iştirak etməlidir*

*Erməni kəndliləri bilsə ki, yenə sovet dövründən yaşadığı kənddə qalıb torpaqlarını sərbəst əkib-becərəcəklər, məmnuniyyətlə Azərbaycan vətəndaşlığını qəbul edəcəklər*

*Biz kiçik qruplarla Şuşanın kəndlərinə də sızıb orada mövqelərimizi, postlarımızı qurmalıyıq...*



**Azay Kərimov,**
Qarabağ qazisi,
ehtiyatda olan polkovnik

Mən həmin yolla özümün avtomobillə hərəkət etməyimlə bağlı bir epizodu da xatırlada bilərəm. 1992-ci il mayın 10-da Turşsuya bir atlı gəldi ki, Kosalarda camaatın Şuşanın işğal olunmasından xəbəri olmayıb və qalıblar mühasirədə. Təcili oraya yollandıq və Şırlan istiqamətindən məhz dediyim yolla Kosalar sakinlərinin kənddə qalanlarını Laçın yoluna çıxararaq xilas etdik... Yəni o yolu "Qaz-66" markalı maşınla rahat gedib-gəldik... Onu da deyim ki, Kosalar camaatının digər qismi də bayaq xatırlatdığım Qırxqız dağının yanından keçən at-araba yoluyla Laçının kəndlərinə çıxaraq xilas olmuşdular...

***- Ermənilərlə kifayət qədər həm dinc, həm də müharibə dövründə ünsiyyətdə olmuş, yəni onların xarakterinə bələd biri kimi necə düşünürsüz, əgər Azərbaycan dövləti Xankəndindəki Rusiya və ya Fransadan idarə olunan separatçı-terrorçu xislətli liderlərin, təşkilatçıların zərərsizləşdirilməsinə nail olsa, yerdə qalacaq 10-15 min erməni Azərbaycan qanunlarına, Konstitusiyasına tabe olub ölkə vətəndaşlığını qəbul edərək dinc yaşayarmı?***

- Hesab edirəm ki, separatçı liderləri aradan götürsək də, Qarabağdakı ermənilərin bəziləri yenə də Azərbaycan qanunlarına tabe olaraq bizim vətəndaşlığı qəbul etməyə çəkinəcəklər, ya da buna birbaşa razılıq verməyəcəklər. Mən ermənilərlə uşaqlıqdan, gəncliyimdən qonşuluqda yaşadığımdam bilirəm ki, sadə, yoxsul erməni üçün torpaq hər şeydən əzizdir. Çünki erməni kəndliləri qarışqa kimi bütün yazı-yayı işləyərək bütün tədarüklərini görür və bütün qışı xımır-xımır yeyirlər. Ona görə də hesab edirəm ki, erməni kəndliləri bilsə ki, yenə sovet dövründən yaşadığı kənddə qalıb torpaqlarını sərbəst əkib-becərəcəklər, onlar məmnuniyyətlə Azərbaycan vətəndaşlığını qəbul edəcək və qanunlarına tabe olacaq. Bəlkə yalnız Xankəndində və Əsgəranın mərkəzində yaşayan beyni zəhərlənmiş hayklar bir az müqavumət göstərə, qalanları asanlıqla tabe olacaq...

Onu da deyim ki, bütün dünyada əsgər çəkməsiylə özgə torpaqlarında iz qoymuş böyük ölkələr terrorizmi pisləyir. Amma əllərinin altında on minlərlə terrorçu var, yeri gələndə öz dövlətlərinin maraqları naminə onlardan başqa dövlətlərə qarşı yararlanırlar. Biz isə nə özümüz terrorçu dövlətik, nə də terrorçu dəstələr bəsləyirik. Sadəcə, kiçik əsgəri qruplar yaradaraq Şuşanın, Xocalının, Xocavəndin və s. bizim nəzarətimizdə olmayan kəndlərini tədricən nəzarətə götürmək gərəkdir. Şuşanın özündən və Daşaltı kəndindən başqa 35-36 kəndi bizim nəzarətimizdə deyil. Məsələn, Şırlan, Zamanpəyəsi, Allahqulular və s. Hazırda həmin kəndlərdə ermənilərdən, demək olar ki, heç kəs yaşamır.

Ola bilər ki, hardasa bir malqara, qoyun-keçi saxlayan çoban yaşasın, vəssalam. Bir sözlə, Şuşanın Sarıbaba, Ağdamın Fərrux yüksəkliklərini gözlənilmədən azad etdiyimiz kimi, biz kiçik qruplarla belə kəndlərimizə də sızıb orada mövqelərimizi, postlarımızı qurmalıyıq... Necə yənı biz İsabulağına gedə bilirik, amma cəmi 1 km məsafədəki Şırlan kəndinə gedə bilmirik?..

***- Əvvəlki söhbətlərimizdən də billirik ki, siz digər hərbçi, döyüşçü yoldaşlarınızla birgə hələ Azərbaycanın Moskvaya tabe olduğu 1990-1991-ci illərdə Arkadi Manuçarov kimi separatçı milyarderləri Xankəndindəki evindən tutaraq Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil vermisiniz. Bəs bu gün xüsusi təyinatlılarımız Qarabağda Rusiyanın himayəsi altında at oynadan Araik Arutyunyanı, Ruben Vardanyana, Vitali Balasanyanı yaxalayıb Bakıya gətirə bilərmi?***

- Niyə gətirə bilmirlər ki? Əlbəttə, gətirə bilərlər. Hesab edirəm ki, əgər tapşırıq verilsə, bizim xüsusi təyinatlı qurumlarımızdakı igid oğullarımız onları asanlıqla tutub Bakıya gətirə bilərlər... Bəli, təxminən 1991-ci ilin payızında Dagliq Qarabagda "Krunq" təşkilatını maliyyələşdirən, Qarabagda mitinqlərin əsas təşkilatcilarından və sponsorlarından biri, qatı türk düşməni, bir sözlə, Qarabag ermənilərinin agsaqqalı, sovet milyarderi Manucarovu Xankəndindəki bag evindən başına torba keçirib götürdük və Əsgəran yolunda əlimizdən alınmaq şansı olmasın deyə, Laçın yolu ilə Ağdama gətirdik... Onu o vaxt Xankəndində ermənilərin girov götürdüyü Bakı Şəhər Prokurorluğu İstintaq şöbəsinin prokuroru Şükür Rzayevlə dəyişmək üçün gətirmişdik...

***- Azay bəy, nəzəri olsa da belə hesab edək ki, Ukraynadakı savaşda uduzan Rusiya elə bir duruma düşdü ki, Azərbaycan ərazisindən "sülhməramlı"ları, Ermənistandan da 102-ci bazasını və sərhəd qoşunlarını tamamilə çıxardı. Sizcə, o halda da ermənilər Azərbaycanla Qarabağ, sərhəd davası aparacaq?***

- Əvvəla, Rusiya Qarabağdan "sülhməramlı" kimi çıxsa da, Ermənistandan inanmıram qoşunlarını çıxarsın; ermənilərin hamısını qırarlar, amma buna imkan verməzlər... Əgər bu, baş versə, bəli, ermənilər nə Ermənistanda nə də Qarabağda bizə heç bir müqavumət göstərməyəcək və sovet dövründəki kimi qınlarına çəkilib yaşayacaqlar..

Ümid etdikləri Fransadır, o da heç vaxt Azərbaycanı, Türkiyəni qarşısına alıb bura əl uzatmaz...

Bilirsiz, hazırda yeganə yol Rusiyaya da, Ermənistana da məqamı düşdükcə qorxmadan, çəkinmədən təzyiq, basqı göstərmək, rusların öz dili ilə desək, "nayezd" etməkdir...Əvvəlki söhbətlərimizdə 1990-1991-ci illərdə Qarabağda separatçılara, terrorçulara dəstək verən Rusiya zabitlərini nə günə qoymağımız haqda danışmışıq... Onda hələ dövlətimiz yenicə formalaşırdı, ordumuz yox idi. İndi isə şükür Allaha, güclü dövlətimiz də var, ordumuz da...

***✍ Sultan Laçın***

# Azərbaycan sülhdə maraqlı tərəfdir

**Ermənistan üçtərəfli görüşlərdən imtina edir. Azərbaycan qalib ölkə olmasına baxmayaraq, sülhdə maraqlı tərəfdir. Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şəfiyev ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib. O bildirib ki, lakin hələ də bizim hansısa güc yolu ilə nəyisə etmək istədiyimiz iddia olunur.**



**Fərid Şəfiyev,**
Beynəlxalq Münasibətlərin
Təhlili Mərkəzinin sədri

Biz bu cür qərəzli mövqeyi münaqişənin birinci günündən görürük. "Amerika Birləşmiş Ştatları Ermənistanla Azərbaycan arasında müəyyən görüşlər təşkil etmişdi. Amma o platforma deyildi, sadəcə görüşlər idi. Görüşlərin Brüssel və Moskva formatı mövcuddur. Ola bilsin bu format yenidən bərpa olunsun. Fransanın görüşlərdə dördüncü tərəf kimi iştirakı isə Azərbaycan tərəfindən rədd edilib", - deyə Fərid Şəfiyev vurğulayıb.

Ermənistanla Rusiya arasında bəzi strateji problemlər var. Ermənistan düşünürdü ki, onun işğalçılıq siyasəti birmənalı olaraq Rusiya tərəfindən dəstəklənəcək, Azərbaycan torpaqlarını əbədi olaraq zəbt edəcək. Fərid Şəfiyev deyib. "2018-2019-cu illərdə Ermənistan rəhbərliyi özünü elə aparırdı ki, guya Rusiyadan asılı deyil, müstəqil dövlətdir. Qərblə bəzi layihələr həyata keçirmək istəyirdi. Hərbi cəhətdən işğalçılıq siyasəti isə Rusiya tərəfindən dəstəklənəcək. 2019-cu ildən bu yana Madrid prinsipləri ilə bağlı Ermənistan heç bir addım atmayıb. Bunlar Rusiya tərəfdən mənfi qəbul edilib. Rusiya müəyyən dərəcədə Ermənistanı dəstəkləmir. Ermənistan və Rusiya arasında bu fundamental fikir ayrılığı davamlı olacaq", - deyə Fərid Şəfiyev qeyd edib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əsas işi geosiyasəti xarici tərəfdaşlara çatdırmaq, bununla əlaqədar Azərbaycanda və xaricdə müxtəlif tədbirlər keçirməkdir. Fərid Şəfiyev ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.

"Yaxın Şərqdəki erməni diasporu haqqında tezliklə məruzəmiz olacaq. Biz Fransada, Rusiyada və Argentinada erməni diasporu ilə bağlı müfəssəl araşdırma aparmışıq. Bu araşdırmalar həmin ölkədə fəaliyyət göstərən beyin mərkəzləri ilə birlikdə hazırlanıb. Onların əksəriyyəti ingilis dilindədir", - deyə Fərid Şəfiyev qeyd edib.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) ölkədə baş verən siyasi prosesləri beynəlxalq auditoriyaya çatdırmaq işinin tərkib hissəsi kimi əməkdaşların 2022-ci ildə xaricdə 130-dan çox məqaləsi dərc olunub. Fərid Şəfiyev deyib. O bildirib ki, BMTM-in məhsulları Azərbaycan-Ermənistan sülh prosesi prioritet olmaqla yanaşı, regionda nəqliyyat və enerji layihələrini, ikitərəfli əməkdaşlıq əlaqələrini, Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakını, dünyada baş verən siyasi prosesləri və bunun Azərbaycana təsirlərini əhatə edib. "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə 4 anlaşma memorandumu imzalanıb. Bununla da anlaşma memorandumlarının sayı 34-ə çatıb", - deyə Fərid Şəfiyev qeyd edib.

***✍ Vüsal***

# "Bu gün hamımız qərbi azərbaycanlıyıq..."



**Musa Quliyev,**
Milli Məclisin deputatı

***Azərbaycan Dövləti Qarabağı, Şərqi Zəngəzuru düşməndən azad etdikdən sonra, tarixin müxtəlif dövrlərində böyük güclərin diqtəsi, erməni məkri ilə öz yurdundan qovulan, deportasiyalara məruz qalan minlərlə azərbaycanlının öz torpaqlarına qayıdışını, öz tarixini qorumağı hədəfləyir. Bu gün Azərbaycan Dövləti və xalqı tarixi Zəngəzura gedən yolun astanasındadır və atılan növbəti addım vaxtilə Azərbaycandan qoparılaraq üzərində Ermənistan yaradılan tarixi Qərbi Azərbaycana qayıdışı hədəfləyir. Prezident İlham Əliyevin Qərbi Azərbaycan ictimai birliyinin inzibati binasının açılışında Qərbi Azərbaycana qayıdışla bağlı çıxışı və göstərdiyi hədəflər xüsusi vurğu və tarixi məqam kimi qeyd olunur, müzakirə edilir. "Həftə içi"nin müsahibi - Milli Məclisin deputatı Musa Quliyevlə bu məsələləri müzakirə etdik.***

## Müsahib

***- Musa müəllim, qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı məsələsinin ölkə başçısı tərəfindən çıxışında böyük vurğu ilə elan edilməsi və Prezidentin qərbi azərbaycanlıların inzibati binasının açılışında bir qrup qərbi azərbaycanlı ilə görüşü zamanı səsləndirdiyi məsələlərin əhəmiyyətini necə dəyərləndirmək olar və bizə hansı vəzifələri tapşırır?***

- Əlbəttə, deməliyəm ki, cənab Prezidentin bir qrup Qərbi Azərbaycan ziyalısı ilə görüşü, çıxışı çox mühüm tarixi və strateji əhəmiyyətə malik siyasi addımdır. Bu, Qərbi Azərbaycana qayıdış proqramı, yol xəritəsidir. Cənab President Qərbi Azərbaycanın tarixi, siyasi, hüquqi, mənəvi aspektlərinə toxundu və "Nə etməliyik?" sualına cavab verdi. Hesab edirəm, bu məsələ həm bütövlükdə icma və nümayəndələri, həm də müvafiq dövlət qurumları tərəfindən təhlil edilməli, sistemləşdirilməlidir. Prezidentin də söylədiyi kimi, Qərbi Azərbaycan tarixinin araşdırılması əlavə təkliflərlə zənginləşdirilib konsepsiya hazırlanmalıdır.

Azərbaycanlıların öz tarixi torpaqlarından məcburən çıxarılması, qaçqın vəziyyətinə gətirilməsi prosesindən 35 ilə qədər vaxt keçib. Proseslər 1985-ci ildə başladı və artıq 1989-cu ildə Nüvədi kəndi istisna olmaqla, Qərb Azərbaycanda bir dənə də olsun azərbaycanlı qalmamışdı. Biz bu 35 ilə yaxın müddətdə yalnız öz təşəbbüsümüz, vətəndaş mövqeyimizlə Qərbi Azərbaycanın hər diyarı barədə müəyyən araşdırmalar, təhlillər aparmışıq. İndi isə hesab edirəm, artıq bu işlərlə hüquqi səviyyədə məşğul olmalıyıq.

Əlbəttə ki, Azərbaycanın tarixi irsini, ədəbiyyatını, mədəniyyətini müəyyən əsərlər vasitəsilə yazıb, gələcəyin yaddaşında qorumaq özü də mühüm məsələ idi. Birinci növbədə o torpaqlarımızın qədim adlarını, tarixini, adətlərini, sonrakı taleyini, öz evindən, yurdundan didərgin, qaçqın salınan insanların hansı haqsızlıqlarla üzləşdiyini özümüzə tanıtmalıyıq. Bu istiqamətdə bir çox araşdırma da aparılıb. O cümlədən, mən də Zəngəzurun tədqiqi, toponimləri ilə bağlı araşdırmalar aparmışam. Amma bütün bunlar dövlət siyasəti və sistemli şəkildə aparılmayıb. Bu gün Qərbi Azərbaycan adında bir icma yaranıbsa, deməli, aparılan tədqiqatlar da sistemləşdirilməli, bir proqram halını almalı və fəaliyyətimiz hərtərəfli olmalıdır. Bizim hədəfimiz müəyyənləşməlidir. Bilməliyik ki, nə istəyirik və bunu necə, hansı zamana qədər həyata keçirməliyik. Azərbaycan olaraq bu suallara doğru, düzgün cavab verməliyik. Cənab Prezident qərbi azərbaycanlılarla görüşündə söylədi ki, bu vaxta qədər Qarabağ işğaldan azad olunmamışdı deyə, əsas diqqətimizi ona yönəltmişdik. Artıq Qarabağ, Şərqi Zəngəzur işğaldan azad olunub. İndi bizim yeni hədəflərimiz Prezidentin müəyyən etdiyi kimi, qədim ata-baba torpaqlarımız olan və bu gün Ermənistan deyilən bir dövlətin ərazisində qalan tarixi Azərbaycan torpaqlarına qayıdışımızla bağlıdır. Biz ora necə qayıdacağıq, bunu Prezident söylədi. Amma Ermənistanda və dünyada olan ermənipərəst qüvvələr canfəşanlıq göstərib deyirlər ki, tarixi torpaqlarına qayıdışı hədəfləyən Azərbaycan Ermənistana müharibə elan edir. Təbii ki, bizim belə bir niyyətimiz yoxdur. Biz öz tarixi torpaqlarımıza dinc, beynəlxalq hüququn yol verdiyi şəkildə qayıtmaq istəyirik. Buna görə də "Öz tarixi torpaqlarımıza necə qayıtmalıyıq?" sualına Qayıdış Konsepsiyasının hazırlanması ilə cavab veriləcək. Orada "Qayıdışın yolları nədir və kim qayıtmaq istəyir?" suallarına da ayrı-ayrı bəndlərlə cavab verilməlidir.

Burada digər məsələ odur ki, "Qərbi azərbaycanlı kimdir?" sualını da aydınlaşdırmalıyıq. O, Qərbi Azərbaycanda doğulub, 1988-ci ildə qaçqın düşəndirmi, ondan əvvəlki müddətlərdə öz elindən deportasiya edilib, məcburən öz evlərini, yurdunu tərk edənlərdimi, yaxud da ürəyində Qərbi Azərbaycan sevgisi, arzusu olub, lakin o yerlərlə heç bir fiziki bağlılığı olmayan insanlardımı... Məsələyə birmənalı olaraq vahid mövqedən yanaşılmalıdır. Nə qədər ki, Qarabağ işğalda idi, deyirdik ki, "Hamımız qarabağlıyıq" və təbii ki, bunda da haqlı idik. Əgər Qarabağ hamımızın torpağıdırsa, Qərbi Azərbaycan da hamımızındır. Biz bu gün məsələyə "Hamımız qərbi azərbaycanlıyıq" prinsipi ilə yanaşmalıyıq.

Hesab edirəm, ən konseptual məsələ bunun qanunvericiliklə təkmilləşdirilməsidir. Qeyd edim ki, "Qaçqınlar və məcburi köçkünlərin statusu" haqqında qanun 1999-cu ildə qəbul olunub və keçən 25 il ərzində dünyanın düzəni, eləcə də məcburi qaçqın-köçkün məsələsinə münasibət dəyişib. Biz artıq yeni qanunlar işləyib-hazırlamalıyıq. Orada qərbi azərbaycanlıların qaçqın statusu, həm də onların geri qayıtmasının təminatları əks olunmalıdır.

***- Qərbi Azərbaycana doğru hədəflərimiz yüsək tribunadan bəyan edildi. Siz də qeyd etdiniz, tarixin haqsızlığı ilə üzləşib öz ata yurdlarını müəyyən dövrlərdə tərk edən hər bir irəvalı, qərbi azərbaycanlı, zəngəzurlu, babalarının hansı torpaqda doğulduğu, hansı mədəniyyətə, tarixi mədəni irsə sahib olduğunu bilir. Bu məlumatları daxildən çıxarıb dünyaya necə ötürməliyik?***

- Son 30 il müddətində dövlətimizin əsas hədəfi Qarabağın işğaldan azad olunmasına yönəlmişdi. Bu gün isə bu məsələ tək bir icma səviyyəsində deyil, icma-dövlət, icma-hökumət işbirliyi fəaliyyəti ilə həyata keirilməlidir. Cənab Prezident də söylədi ki, portallar yaradılmalı və tarixi torpaqlarımızla bağlı bütün informasiyalar toplanmalı, saf-çürük edilməli, xarici dillərə tərcümə edilib sistemə oturdulmalı, bütün dünyaya açılmalıdır. Bu, az vaxt, az maliyyə tələb edən işlər deyil. Ardıcıl, sistemli şəkildə proqramlarımızı qəbul etməli və fəaliyyətimizi birgə aparmalıyıq.

Prezident çox doğru söylədi ki, beynəlxalq ekspertləri, hüquqşünasları, alimləri dəvət edərək, bu mövzuda sistemli konfranslar, simpoziumlar, sərgilər keçirməliyik. Ölkə daxilində bilirik ki, Qərbi Azərbaycan haradır, hansı abidələrimiz var və necə dağıdılıb. İndi biz bunu dünyaya tanıtmalı və məqsədimizi bəyan etməliyik.

İcmanın ikinci, üçüncü əsas fəaliyyətində beynəlxalq diasporalar, səfirliklər, o cümlədən tək Türkiyə yox, Türk Dünyası və İslam Dünyası, coğrafiya, mili ideya baxımdan bizə yaxın olan dövlətlərlə birgə fəaliyyətə söykənməlidir. O ölkələrdə Qərbi Azərbaycanla bağlı konfranslar keçirməli, tarixi elmi işlər ortaya qoyulmalıdır.

Cənab Prezident Yol Xəritəsini müəyyənləşdirdi. Hesab edirəm ki, bu məsələyə daha çox gəncləri cəlb etməliyik. Çünki bu proses 25-30 il çəkə bilər. Ona görə də həm icmanın rəhbər orqanlarında, təşkilatçılığında gənclərin öndərliyini qabağa çıxarmalı və bu işi gənclərə həvalə etməliyik.

***- Tarixçilərimizin Qərbi Azərbaycanla bağlı apardığı araşdırmaları necə qiymətləndirmək olar?***

- Tarixçilərimizin bu sahədəki işini qənaətbəxş hesab etmirəm. Ortada Qərbi Azərbaycanla bağlı fundamental əsərlərimiz çox azdır. Tarix İnstitutunun yazıb hazırladığı "İrəvan xanlığı" kitabı var. Qalanları isə fərdi ictimai əsaslarla hazırlanıb. Biz elə elmi əsərlər yazmalıyıq ki, gələcək nəsillər o torpaqların bizim xalqa mənsub olduğunu bilsinlər. Ümummilli Liderin belə bu təşəbbüsdən çıxış edərək, rəhmətlik professor Həsən Mirzə Dərələyəz mahalını, mən isə Zəngəzur mahalını araşdırdım, toponimlərini yazdım. Azərbaycan, Gürcüstan, Sankt Peterburq, Türkiyə arxivlərində araşdırmalar aparıb, bütün faktları toplayıb ortaya qoyduq. Biz bu işləri görəndə nə dövlətdən, nə hökumətdən dəstək ummadıq, dəstək gözləmədik. Bu gün bu işlər AMEA-npn Tarix İnstitutunda sistemli şəkildə aparılıb dünyaya çıxarılmalıdır.

> “
> *Biz hədəfə doğru mərhələ-mərhələ gedib, öz tərəfdarlarımızı artırmaqla beynəlxalq səhnəyə çıxmalıyıq...*

***- Bu gün də bizim torpaqlara iddia edən separatçı ermənillərin məfkurəsinə baxsaq, Qərbi Azərbaycana qayıdışımızı necə görürsünüz?***

- Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını müəyyənləşdirib, qayıdışımız sülh yolu ilə həyata keçirəcəyik. Ona görə də erməniləri sülhə çağıracağıq. Yox əgər, qarşı tərəfdən başqa münasibət olacaqsa, təbii ki, bizim də addımlarımız başqa bir yöndə müəyyənləşəcək. Hesab edirəm ki, dünyanın gərginliyi ilə müşahidə olunan belə bir durumda biz Ermənistana müharibə edən deyilik. Cənab Prezident də deyir ki, biz bu qayıdışı sülh yolu ilə həll edəcəyik və mənə belə gəlir ki, bu, əsas çağırış olacaq. Hələlik isə Qarabağ, Şərqi Zəngəzur tikiləcək, Zəngəzur yolu açılacaq. O yol açılandan sonra bütövlükdə Qərbi Azərbaycana, indi Ermənistan deyilən torpaqlarımıza qayıdışımız başlayacaqdır.

***- İmkanlı iş adamlarımızın Azərbaycanın tarixi torpaqları haqqında əsərlər, filmlər, internet kitabxanaları hazırlanması prosesində maliyyə dəstəyi varmı?***

- Dediyiniz istiqamətlərdən heç bir maliyyə dəstəyi yoxdur. Amma mütləq olmalıdır. Əslində, buna görə onları qınamırıq. Bu günə qədər bu işlərlə sistemli şəkildə məşğul olmamışıq. Həmin qurumlar, şəxslər də təşəbbüs göstərilməlidir. İnsanlar tariximizi öyrənmək, tanıtmaq üçün öz qatqılarını verməlidirlər. Dünyada yaşayan bir çox erməni oliqarxlarının Ermənistanda bir çox sahələrə, hətta separatizmə milyonlarla vəsait yatırdıqları ilə bağlı faktlar var. Mən demirəm ki, bizimkilər də hansısa yolların tikintisi üçün milyonlarla pul ayırsınlar. Amma təbliğat, tarixi, etnoqrafiq araşdırma işlərində Azərbayanın daxilində və xaricdə yaşayan iş adamları, biznesmenlər nəsə edə bilərlər. Ən azı Qarabağın, Şərqi Zəngəzurun bərpasına bir qatqıları ola bilər. Biri bağça tikdirər, biri məktəb, biri xəstəxana və sair... Bu təşəbbüslər olmalıdır. Yəni biz Qarabağı birlikdə azad eləmişiksə, birlikdə də abad eləməliyik. Sonrakı hədəflərimiz də bəllidir. Qərbi Azərbaycana da gedən yolu da bir yerdə, amma düzgün müəyyən etməliyik.

***- Prezidentin Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının sanballı şəkildə hazırlanması ilə bağlı fikilərlə dünyada Azərbaycanı sevməyən Ermənistan, bizim tarixi həqiqətlərə ikili yanaşanlara hansı mesajı verdi?***

- Bu, çox ciddi bir məqamdır. Cənab Prezidentin bütün görüşlərini, çıxışlarını, müsahiblərini təkcə Azərbaycan auditoriyası dinləmir. Bizi istəyən dostlar da, bizi sevməyən qüvvələr, düşmənlər də izləyir və bundan öz dərsini alır. Şübhəsiz ki, cənab Prezident öz çıxışında hüquqdan, qanundan kənar heç nə deməyib. Hər kəsin əsas haqqı və hüquqlarından biri də odur ki, özünün, atasının, babasının doğulduğu, yaşadığı torpaqlara qayıtsın. Ona görə də hesab edirəm ki, cənab Prezidentin bu çıxışı dünya ictimaiyyəti tərəfindən normal, anlaşılan qarşılanmalıdır. Amma ermənilər üçün bir qədər soyuq duş effekti verəcək. Eyni zamanda onlar da xatırlamalıdırlar ki, bu torpaqların sahibləri var və onlar öz torpaqlarına qayıtmaq iddialarını ortaya qoymalıdırlar. Ermənilər bir balaca özlərinə sıxlaşmalıdırlar ki, o torpağın əsl sahibləri gələndə öz yerlərini bilsinlər. Ermənilər bunu dərk etməli və görməlidirlər. Və cənab Prezidentin "biz artıq ana Göyçənin sahilindəyik, artıq durbin olmadan da Göyçə gölünü görürük" sözləri də çox əhəmiyyətlidir. Göyçə gölünü görürüksə, inşaallah biz ora çox rahatlıqla gedə biləcəyik. Inşallah biz ora gedəcəyik. Ona görə də səfərbər olmalıyıq. Qərbi Azərbaycanda doğulub böyüyən, yaşayan bir insan kimi bir təklifim var: "Kimdir qərbi azərbaycanlı?" sualına cavab verərəkən, harada doğulmasından asılı olmayaraq, o yerləri özünə yurd, vətən hesab edən, oraya dönmək istəyən hər kəs Qərbi Azərbaycanlıdır. Biz bu məsələdə çərçivə qoymalı deyilik. Necə ki, Qarabağın işğaldan azad olunması prosesində hər birimiz səfərbər olub Qarabağlı olduq, indi də hər bir Qarabağlı, şərqi zəngəzurlu Qərbi azərbaycanlı olmalıdır. Vətənin dərdi olan yerdə bölücülük ola bilməz. Millət vahidir və vətənə dönüş konsepsiyamız da vahid vətən üçün hazırlanan konsepsiya olmalıdır. Heç kəs düşünməsin ki, bu konsepsiya elə Qərbi Azərbaycanda doğulub ordan didərgin düşənlər üçündür. Vətənin hər qarşı hər birimizindir.

***- Bu gün Qarabağımız, Şərqi Zəngzurumuz 44 günlük müharibə ilə düşməndən azad edilib. Bu gün üçtərəfli bəyanata əsasən aparılan sülh danışıqlarında ermənilərin Qarabağa qayıtması ilə paralel, illərdir yurdundan qaçqın düşmüş Azərbaycan türklərinin indiki Ermənistan sərhədləri daxilində qalan Azərbaycan torpaqlarına-Qərbi Azərbaycana qayıdışı məsələsi sülh danışıqlarında qaldırıla bilərmi?***

- Hesab edirəm ki, azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı məsləsini bu kontekstdə qaldırmaq hələ tezdir. Ermnistanla sülh müqaviləsi bağlayarkən əsas şərtlərimiz 10 noyabr üçtərəfli bəyanatında əks olunan müddüəların tam icra olunması, ondan sonra Qarabağda qalıb məskunlaşacaq, Azərbaycan xalqına qarşı cinayət törətməmiş ermənilərin qanunlarımızı qəbul edərək, bayrağımız altında yaşaması üçün şəraitin yaradılması, hüquq azadlıqların təmin olunmasıdır. Növbəti mərhələlərdə biz vaxtilə Azərbaycanda yaşamış ermənilərin və Ermənistanda yaşamış azərbaycanlıların dönüşü, vətəndaş və yaxud vətəndaşlığı olmadan yaşaması ilə bağlı müzakirə apara bilərik. Birinci mərhələdə Qarabağ, Şərqi Zəngəzur, bütövlükdə Zəngəzur yolu daxil olmaqla məsələləri həll etməliyik, ondan sonra qalan məsələlərə qayıda bilərik. Amma indidən biz bu məsələni sülh müqaviləsi şərtinə salsaq, Azərbaycandan gedən ermənilərin də müəyyən təşəbbüsləri olacaq,

***- Beynəlxalq təşkilatlar ikilisatandartlardan əl çəkmirlər. Beynəlxalq hüquq işləmir. Hətta Prezidentimiz dəfələrlə YUNESKO-nu ermənilərin dağıtdığı Azərbaycan ərazilərində abidələrimizi araşdırmağa dəvət etsə də, bu təşkilat Azərbaycan həqiqətləri görmək istəmədi. Belə olduğu halda beynəlxalq təşkilatların Qərbi Azərbaycan məsələsinə münasibətini necə dəyərləndirmək olar?***

- Biz cəmiyyət olaraq hər hansı bir beynəlxalq təşkilatın Azərbaycanın haqq işinə göstərdiyi bu cür ikili yanaşmalara görə nə ümidsizləşməli, nə də həvəsdən düşməli deyilik. Bəzən Fransadan haqlı olaraq inciyirik. Amma bir reallığı bilməliyik: Fransa bizim üçün qardaş deyil, doğma deyil. O bir dövlətdir və öz maraqları naminə istənilən qərəzli addımlarını atacaq. 30 il ərzində Fransanın da, ATƏT-in də, Rusiyanın da, Amerikanın da etibarını gördük. Biz güclü olmalıyıq və hədəflərimizə doğru getməliyik. Digər tərəfdən biz öz işimizi bizə yaxın olan tərəflərələ qurmalıyıq. Bizə yaxın olanlar Türk Dünyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatıdır. Bizim hədəfimiz bu təşkilatlar içərisindən öz tərəfdaşlarımızı artırmaq, təbliğatımızı da o istiqamətdə inkişaf etdirməkdir. Yoxsa gedib erməniperəst mövqedən çıxış edən dövlətlərdə Zəngəzur, Qərbi Azərbayacana qayıdış məsələsini qoysaq, uğur qazana bilməyəcəyik. Ona görə də biz hədəfə doğru mərhələ-mərhələ gedib öz tərəfdarlarımızı artırmaqla beynəlxalq arenaya çıxmalıyıq.

✍ ***Tahirə Qafarlı***



# 2023-də bizi gözləyən yeniliklər

◂ əvvəli 1-ci səhifədə

Qeyd edilib ki, Hesablama Palatası rəyində əvvəlki illərin icra göstəricilərinin təhlilinə əsaslanaraq növbəti ildə müavinət məbləğlərində dəyişiklik edilməyəcəyi halda uşağın anadan olmasına və 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar, eləcə də dəfn üçün müavinətlər üzrə nəzərdə tutulmuş vəsaitin məbləğinə yenidən baxılmasını tövsiyə edib.

Xatırladaq ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanına dəyişiklik edilməsi barədə" 2021-ci il 20 dekabr tarixli 1496 nömrəli Fərmanına əsasən uşağın anadan olmasına görə birdəfəlik müavinətin məbləği cari ilin 1 yanvar tarixindən 50 faiz artırılaraq 300 manata çatdırılıb.

### Qarabağda işləyənlərə güzəştlər nəzərdə tutulub

**Yeni ildən azad edilən ərazilərdə işləyən mütəxəssislərə güzəştlər və imtiyazlar tətbiq olunacaq.**

Bununla bağlı Əmək Məcəlləsinə yeni maddənin əlavə olunması təklif edilir. Yeni maddəyə əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislər aşağıdakı şərtlər birgə mövcud olduğu hallarda Məcəllədə və digər qanunlarda nəzərdə tutulan güzəştlərdən və imtiyazlardan istifadə etmək hüququna malikdirlər:

- Mütəxəssislərin əmək müqaviləsi bağladıqları işəgötürən işğaldan azad edilən ərazilərdə vergi uçotunda olduqda;
- Mütəxəssislərin əmək müqaviləsi üzrə iş yeri işğaldan azad edilən ərazilərdə yerləşdikdə;
- Mütəxəssislər işğaldan azad edilən ərazilərdə məskunlaşdıqda.

Dəyişiklik layihəsi qəbul olunacağı təqdirdə 2023-cü ilin yanvarın 1-dən qüvvəyə minəcək.

### Hərbçilərin pensiyası yeni qaydada hesablanacaq

**Gələn il nəzərdə tutulan yeniliyə əsasən, təminat xərcliyi anlayışına dəyişiklik edilir.** Hazırda qüvvədə olan qanuna əsasən, təminat xərcliyi (pul təminatı) hərbi qulluqçuların hərbi xidmətdən buraxıldığı günə (sərəncamdan ehtiyata və ya istefaya buraxılarkən sərəncama götürüldüyü günə) aldıqları miqdarda (sonrakı artımlar da nəzərə alınmaqla) aylıq vəzifə maaşından, rütbə maaşından, xidmət illərinə görə əlavədən, ərzaq payı əvəzinə verilən pul kompensasiyasından, vəzifə maaşından hesablanan digər əlavələrdən (büdcədənkənar vəsaitlər hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla), artımlardan ibarət olan məbləğdir. Dəyişikliyə əsasən, sonrakı artımlar təminat xərcliyindən çıxarılır. Beləliklə, təminat xərcliyi (pul təminatı) hərbi qulluqçuların hərbi xidmətdən buraxıldığı günə (sərəncamdan ehtiyata və ya istefaya buraxılarkən sərəncama götürüldüyü günə) aldıqları miqdarda aylıq vəzifə maaşından, rütbə maaşından, xidmət illərinə görə əlavədən, ərzaq payı əvəzinə verilən pul kompensasiyasından, vəzifə maaşından hesablanan digər əlavələrdən (büdcədənkənar vəsaitlər hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla), artımlardan ibarət olan məbləğ hesab olunacaq. Başqa sözlə, dəyişiklik pensiya hüququ əldə edən hərbi rütbəli şəxslərin pensiyasının əməkhaqqından sonrakı artımlar əsasında deyil, ölkə üzrə orta aylıq nominal əməkhaqqının artım tempinə uyğun qaydada təminat xərcliyinə əsasən, pensiya alan hərbi rütbəli şəxslərin əmək pensiyasının ümumi məbləğinin hər il yenidən hesablanaraq artırılması onların sosial müdafiəsinin yaxşılaşdırılması ilə yanaşı əmək pensiyalarının indeksləşdirilməsi metodologiyasında vahid yanaşmaya nail olunmağı məqsədilə hər il yenidən hesablanması üçündür.

### "Qida təhlükəsizliyi haqqında" qanun qüvvəyə münəcək

**2023-cü il yanvarın 1-dən "Qida təhlükəsizliyi haqqında" qanun qüvvəyə minəcək.**

Yeni qanun qida təhlükəsizliyi sistemi üzrə bir çox yeniliklərin hüquqi bazasını formalaşdırmaqla yanaşı, sahibkarlara dövlət dəstəyi siyasəti çərçivəsində bəzi inzibati prosedurların sadələşdirilməsini də nəzərdə tutur. Yeni qanuna əsasən, 2023-cü il yanvarın 1-dən etibarən sahibkarlıq subyektlərini bir sıra yeniliklər gözləyir. Belə ki, yeni ildən etibarən təsdiqi tələb olunan xaricdəki qida obyektlərindən məhsul idxalına yalnız obyekt təsdiq edildikdən sonra icazə veriləcək. Bəzi ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması avtomatik olaraq, bəzi ölkələrdə isə qiymətləndirmə aparılmaqla həyata keçiriləcək. Bioloji aktiv qida məhsulları, qida və yem əlavələri və təbii mineral sular dövlət qeydiyyatına alındıqdan sonra onların istehsalı, emalı və dövriyyəsinə icazə veriləcək. Qida məhsullarının, o cümlədən mineral suların üzərində "müalicəvi" sözünün yazılmasına icazə verilməyəcək və bu cür məhsulların idxalı və istehsalı mümkün olmayacaq. Qida məhsullarının markalanmasında Azərbaycan dilində məlumatlar olmadıqda, həmin məhsulların idxalına və dövriyyəsinə icazə verilməyəcək. Qida məhsullarının markalanmasında qida məhsullarına xas olmayan təsir və ya xassələrin göstərilməsinə, habelə eynixassəli oxşar qida məhsullarının hər birinə məxsus xassələrin xüsusi xassələr kimi təqdim edilməsinə icazə verilməyəcək. Bəzi yüksək riskli qida məhsullarının idxalı üçün həmin məhsulların təhlükəsizliyini təsdiq edən sənədlə müşayiət olunması tələbi qüvvəyə minəcək. Bütün qida və yem məhsulları məhsul idxal olunmamışdan əvvəl bildiriş göndərildikdən, idxal olunduqdan sonra isə sənəd nəzarəti, eynilik nəzarəti və fiziki nəzarətdən keçdikdən və idxal sağlamlıq aktı verildikdən sonra dövriyyəyə buraxılacaq. Qida ilə təmasda olan material və məmulatların idxalı zamanı onlara Agentlik tərəfindən verilən idxal sağlamlıq aktı, yerli istehsal olduqda isə obyektlərin qeydiyyatı tələb olunacaq.

Aşağı riskli məhsullara aid qida obyektlərinin qeydiyyatı avtomatik, yüksək riskli məhsullara aid obyektlərin təsdiqi isə tələblərə uyğunluğu qiymətləndirilməklə həyata keçiriləcək. Obyektlərin və subyektlərin qeydiyyatı dövlət rüsumu tələb olunmadan, təsdiqi isə mikro və kiçik sahibkarlıq subyektləri üçün rüsumsuz, orta və iri subyektlər üçün isə vahid məbləğ (150 manat) olmaqla ödəniləcək. Yem məhsullarının dövlət qeydiyyatı "yem zəncirinə" nəzarətlə əvəz olunacaq. Özəl laboratoriyalar akkreditasiya ilə yanaşı, Qida Təhlükəsizliyi İnstitutunun səriştəlilik sınaqlarından keçdikdən sonra onların nəticələri qəbul ediləcək.

✍ ***Sevinc***

# İnvestorların sənaye parklarına marağı artıb

## Layihə

***Son illər Azərbaycanda fəaliyyət göstərən sənaye parklarına investisiya yatıran sahibkarların sayı artıb. Qeyd edək ki, indiyədək sənaye parklarına 6,4 milyard manat investisiya qoyulub və 10 mindən artıq yeni iş yerləri yaradılıb. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin müdiri Elçin İbrahimovun sözlərinə görə, iqtisadiyyatda fəaliyyət göstərən subyektlərin 99 faizdən çoxu mikro-kiçik sahibkarlıq sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləridir:***

"2021-ci il ərzində bu sektorda 20 milyard dollardan çox dövriyyə formalaşıb ki, bu da ümumi biznesin 32 faizinin bu sektorda, neft və qeyri-neft ÜDM-in isə 56 faizinin bu sektorda formalaşdığının əyani sübutudur. Sənaye parkları ilə bağlı mexanizmin 80 faizi bu sektor vasitəsilə reallaşdırılır".

Yeri gəlmişkən, Azərbaycanda sənaye parkları yaradılarkən xarici ölkələrin bu sahədəki müsbət təcrübəsi öyrənilib, o cümlədən BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınıb. Yalnız bu səviyyədə təhlillərdən sonra Prezidentin 24 aprel 2013-cü il tarixli fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilib. Əsas məqsədi innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, yerli və xarici investisiyalar üçün daha əlverişli mühitin yaradılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması və s. olan sənaye parklarında bir sıra stimullaşdırıcı tədbirlər (sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar, parklar lazımi infrastrukturla təmin edilirlər, torpaq sahəsinin icarə haqqı aşağı həddə müəyyən olunur, inzibati prosedurlar sadələşdirilir, sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlər təşkil edilir) tətbiq olunur.



**İndiyədək sənaye parklarında 10 mindən artıq yeni iş yerləri yaradılıb**

Bundan başqa ölkəmizdə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Agentliyin yaradılmasının əsas məqsədi sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəlləri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, həyata keçirilməsini təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirtməkdir.

Qeyd edək ki, bütün bu imtiyaz və güzəştlər sayəsində sənaye parkları qısa müddət ərzində özlərini doğrultmuş, qarşılarına qoyulan vəzifələrin öhdəsindən gəlmişlər. Məsələn, Prezidentin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılan ölkəmizin və ümumilikdə regionun ən böyük sənaye zonası olan Sumqayıt Kimya Sənaye Parkının artıq 31 rezidenti var. Fəaliyyət göstərən müəssisələrin faktiki sayı isə 19-a yüksəlib. Həmçinin, İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində müxtəlif istiqamətlər üzrə peşə təhsili verən Peşə Təhsil Mərkəzi fəaliyyət göstərir.

Dövlət başçısının 2011-ci il 28 dekabr tarixli sərəncamı ilə yaradılan Balaxanı Sənaye Parkının idarəedici təşkilatı isə "Təmiz Şəhər" ASC-dir. "Yaşıl iqtisadiyyat"ın inkişafında xüsusi əhəmiyyətə malik olan parkın təşkilində başlıca hədəf təkrar istehsal sahəsinə maraq göstərən potensial sahibkarlar və investorlar üçün əlverişli şərait təşkil etməkdir. Ümumilikdə, Parkda 25 rezident qeydiyyata alınmış və onlardan 16-sı fəaliyyətə başlamışdır.

Dövlət başçısının 2015-ci il 3 iyun tarixli sərəncamına əsasən yaradılan Qaradağ Sənaye Parkının əsas vəzifəsi ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına dəstək verməkdir. İdarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC olan bu parkın bir rezidenti ("Bakı Gəmiqayırma Zavodu" MMC) var.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC Prezidentin 2015-ci il 26 fevral tarixli sərəncamı ilə yaradılmış Mingəçevir Sənaye Parkının da idarəedici təşkilatıdır. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsal edən və xidmətlər göstərən parkda rezident kimi qeydiyyata alınmış "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə dəyəri 85 milyon dollar, illik istehsal gücü 20 min ton iplik olan 2 fabriki 2018-ci ilin fevralında Prezidentin iştirakı ilə istifadəyə verilmişdir. Avadanlıqları Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərindən alınan həmin fabriklərdə 750 nəfər çalışır.

Əsasən əczaçılıq sənayesinin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 14 sentyabr tarixli Sərəncamı ilə 30 hektar ərazidə isə Pirallahı Sənaye Parkında 5 müəssisə rezident kimi qeydiyyatdan keçib ki, bunlardan da artıq 2-si fəaliyyətə başlayıb.

Bunlardan əlavə, işğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işlərinin uğurla həyata keçirilməsi, eləcə də əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi məqsədilə rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılması, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı və zəruri stimulların tətbiqinin xüsusi əhəmiyyəti nəzərə alınaraq, dövlət başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə Ağdam şəhərində 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Sənaye parkında 190 hektar sahə mina və partlamamış hərbi sursatlardan təmizlənib və parkın baş planı hazırlanıb. Hazırda layihələndirmə işləri yekunlaşmaq üzrədir. Parkda artıq 7 sahibkara sənaye parkının rezidenti statusu verilib. Həmin rezidenlər "Müxtəlif çeşidli sintetik xalça istehsalı" layihəsi üzrə "Dadaş-N" MMC, "Prefabrik dəmir-beton məmulatları istehsalı" layihəsi üzrə "Veliev" MMC, "Uniforma, xüsusi və fərdi geyimlərin istehsalı" layihəsi üzrə "Ağtekstil" MMC, "Dam örtüklərinin istehsalı" layihəsi üzrə "Prof-Dam" MMC, "Havalandırma, yanğınsöndürmə avadanlıqlarının və metal məmulatların istehsalı" layihəsi üzrə "Metkons" MMC, "Metal profil və anbar stellajlarının istehsalı" layihəsi üzrə "Agah Group" MMC", "Ağır texnikaya texniki xidmətin göstərilməsi və bununla əlaqədar olaraq bəzi metal ehtiyat hissələrinin bərpası və istehsalı" layihəsi üzrə "Expert Services FZE" Məhdud Məsuliyyətli Azad Zona Müəssisəsinin Azərbaycan Respublikasındakı Nümayəndəliyidir.

Həmçinin, işğaldan azad edilmiş ərazilərdə logistika və ticarət fəaliyyətinin həyata keçirilməsi, xidmətlərin göstərilməsi, sənaye istehsalının dəstəklənməsi və əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye Parkı azad edilmiş ərazilərdə aparılan bərpa və yenidən qurma işləri üzrə logistika mərkəzi funksiyasını və Zəngəzur dəhlizi üzrə nəqliyyat potensialından səmərəli istifadə olunması üçün logistik baza rolunu yerinə yetirəcəkdir.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da işlər mərhələli şəkildə həyata keçirilir. "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzi olan "KAMAZ Lizinq Azərbaycan" MMC "Yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına texniki servis xidmətlərinin göstərilməsi" layihəsi üzrə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Regional servis mərkəzində "KamAZ" ilə yanaşı digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcəkdir. Gələcəkdə Sənaye Parkında logistika və anbar kompleksləri, TIR parkı, topdan və pərakəndə satış obyektləri və müxtəlif istehsal və xidmət müəssisələrinin fəaliyyəti nəzərdə tutulur.

✍ **Sevinc**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Fransanın Azərbaycan əleyhinə oyunları davam edir

***Fransanın son aylarda Azərbaycana qarşı sərgilədiyi ikili yanaşmalar, açıq şəkildə haqsız durumda da olsalar ermənilərin yanında yer alması və sülh danışıqlarını pozması istiqamətində qara fəaliyyəti davam edir. Artıq Parisdə bütün səviyyələrdə antiAzərbaycan isterikası formalaşdırılır və sanki, 30 il işğala, soyqırımlara məruz qalan, ərazisi tamamilə viran edilən, təbii ehtiyatları talanan biz yox, ermənilərdir. Bu siyasətin dayandırılması üçün rəsmi Bakı Fransa tərəfinə dəfələrlə çağırış edib.***





**Asim Mollazadə,**
Milli Məclisin deputatı

Dekabrın 28-də Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb və Fransanın Avropa və Xarici İşlər Nazirliyinə ünvanlanmış etiraz notası qarşı tərəfə təqdim olunub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən hafta.az-a-a bildiriblər ki, görüş zamanı Fransa hökumətinin zəruri cavab reaksiyasının olmaması fonunda Fransanın müxtəlif siyasi qüvvələri tərəfindən Azərbaycana qarşı açıq böhtan və qərəz əsasında qurulmuş kampaniyanın genişlənərək davam etməsindən dərin narahatlıq ifadə olunub və məktubda əks olunmuş iddialar qətiyyətlə rədd edilib.

Bu çərçivədə, bir neçə gün əvvəl Fransa parlamentində təmsil olunan siyasi qüvvələrin rəhbərləri adından Fransa prezidentinə ünvanlanmış məktubda Azərbaycana qarşı əsassız ittihamlar səsləndirilməsinin, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qəsd mahiyyətində addımlar atılmasına çağırış edilməsinin qəbuledilməz olduğu bildirilib.

Sözügedən məktubun Fransa Parlamentinin hər iki palatasının Azərbaycana qarşı əsassız ittihamlarla dolu qətnamələrinin qəbul edilməsinin də daxil olduğu, məqsədyönlü və sistemli şəkildə həyata keçirilən silsilə xarakterli anti-Azərbaycan tədbirləri və bəyanatlarının davamı olduğu vurğulanıb.

Azərbaycan tərəfi Fransa hökuməti tərəfindən Azərbaycana qarşı aparılan kampaniyanın dərhal dayandırılması məqsədilə müvafiq tədbirlərin görülməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Qarabağ, o cümlədən Laçın yolu Azərbaycanın suveren ərazisidir. Bunu Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva Fransa parlamentinin ermənipərəst deputatlarının "Le Monde" qəzetində Laçın yolu ilə bağlı çağırışına münasibət bildirərkən yazıb. Səfir özünün tviter hesabında bununla bağlı etdiyi paylaşımda, həmçinin yazıb: "Qarabağ erməniləri Azərbaycan vətəndaşları sayılırlar. "Universal dəyərlər, mənəvi borc və şərəf sizdən Azərbaycanın sülh səylərini dəstəkləməyi tələb edir". Fransa yenidən özünü imperiya kimi hiss etmək istəyir və Rusiyanın Cənubi Qafqazdan çıxma ehtimalı olduğuna görə Fransa bu bölgəyə Rusiyanı əvəzləyərək yeni bir imperiya kimi daxil olmaq istəyindədir. Bununla yanaşı, erməni diasporu lobbiçilik fəaliyyəti nəticəsində bu ölkənin siyasi korrupsionerlərdən istifadə edərək, erməni icmasının istəklərini ifadə edir və bölgədə yaşayan erməniləri bir qurban kimi görür.

*"Erməni diasporuna daimi münaqişə lazımdır ki, hansısa faciələri yaradaraq Ermənistan üçün maliyyə toplasınlar"*

■ **Bu fikirləri isə Milli Məclisin deputatı Asim Mollazadə söyləyib. "Erməni diasporuna daimi münaqişə lazımdır ki, hansısa faciələri yaradaraq Ermənistan üçün maliyyə toplasınlar.**

Hazırda Makronun siyasətində Türkiyə ilə problemləri olduğuna görə türkofobiya daha çox Fransada artır. Eyni zamanda, bu ölkədə həm antisemitizm, həm də rasizm artır. Yeni bir imperiya kimi Cənubi Qafqaza gələrkən onlar öz istəklərini gerçəkləşdirməyə çalışacaqlar. Həmçinin erməni icması bunun üçün onlara müəyyən maliyyə dəstəyi də verir", - deyə deputat vurğulayıb.

✍ **Azad Əliyev**

## XƏBƏRİNİZ OLSUN...



■ İlk dəfədir ki, dekabrın 15-də 15 mlrd. manatdan çox vergi mədaxilini təmin edə bilmişik. İlk dəfə qeyri-neft ixracımız 3 mlrd. dollardan çox olacaq. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib. Onun sözlərinə görə, 2019-cu ilə qədər bu rəqəm heç vaxt 1,9 mlrd. dollardan çox olmayıb.

■ Azərbaycan millisinin voleybolçusu Odina Əliyevanın yeni klubu bəlli olub. 32 yaşlı hücumçu karyerasını Çində davam etdirəcək. O, "Şenzen Jonqsay"la müqavilə imzalayıb. Odina 2022/23 mövsümünün sonunadək bu klubda çıxış edəcək. Qeyd edək ki, 2015/16 mövsümündə "Azərreyl"də çıxış edən Əliyeva həmin vaxtdan sonra ölkə xaricində legioner həyatı yaşayır.

■ Azad olunmuş ərazilərdə vəkil bürolarının yaradılması nəzərdə tutulur. Bunu Azərbaycan Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov deyib. O bildirib ki, bununla bağlı kollegiyada lazımi tədbirlər görülür: "Biz istəyirik ki, həmin ərazilərimizdə də bürolar yaradaq və vətəndaşlarımıza keyfiyyətli hüquqi yardımlar göstərək. Yaxın vaxtlarda bu planı realizə edəcəyik", - A.Bağırov qeyd edib.



■ Argentina millisinin dünya çempionatında çıxışı zamanı Lionel Messinin Dohadakı Qətər Universitetinin kampusunda qaldığı otaq muzeyə çevriləcək. Messi "B201" nömrəli otaqda qalıb. Otaqda ikinəfərlik çarpayı, stol, kreslo, televizor və sarıyastıqlı boz divan var. Qapının üstündə "L.Messi" yazılıb.

■ Urmiya gölünün su səviyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 49 sm azalıb. Bu barədə Qərbi Azərbaycan əyalətinin Regional Su Şirkətinin veb saytında dərc olunan son məlumatda bildirilir.

■ ABŞ Konqresinin Nümayəndələr Palatası qanunverici orqan əməkdaşlarına iş cihazlarında Tiktok sosial şəbəkə proqramından istifadə etməyi qadağan edib. Məlumata görə, bildiriş Nümayəndələr Palatasının İnzibati Məsələlər Komitəsi tərəfindən göndərilib.



■ Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sabiq sədri Vasif Talıbovun oğlu Seymur Talıbovun ölkədən çıxışına qadağa qoyulub. Hafta.az Qaynarinfo.az-a istinadən xəbər verir ki, Naxçıvan Hava Limanında müalicə adı ilə ölkəni tərk etmək istəyən Seymur Talıbov saxlanılıb və ona ölkədən çıxışının məhdudlaşdırıldığı bildirilib.

■ Ukrayna Təhlükəsizlik Xidməti rusiyalı iş adamı Əlişir Usmanova məxsus olduğu iddia edilən 2 milyard qrivna (təxminən 54,35 milyon dollar) dəyərində dəmir filizi yükünə həbs qoyub. Bildirilib ki, xammal Ukraynanın bir neçə dəniz limanının ərazisində tapılıb.

# 2022-ci ildə ölkəmizdə yaşanan mühüm hadisələr

***Yola salmağa hazırlaşdığımız 2022-ci il Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisələr, yerləşdiyimiz bölgədə cərəyan edən olaylar və s. ilə yadda qaldı. Bu siyasi proseslərə yekun olaraq hərbi və siyasi ekspertlərlə birlikdə nəzər saldıq.***

## Müzakirə

### Sülh danışıqları

**2022-ci ili Azərbaycanın xarici siyasəti kontekstində uğurlu hesab etmək olar.** Bu il Ermənistan-Azərbaycan arasında sülh prosesində bir sıra addımlar atılıb. Yəni Azərbaycan xarici siyasətinin 2022-ci ildə əsas istiqamətlərindən biri məhz



**Mətin Məmmədli,**
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti

iki ölkə arasında sülh prosesi olmuşdur. Məsələn, bu ilin mart ayında Azərbaycan Xarici İşlər Nazirliyi imzalanması gözlənilən sülh müqaviləsi ilə bağlı 5 baza prinsipini təklif edib. Təqdirəlayiq haldır ki, Ermənistan-Azərbaycan arasında aparılan danışıqlar prosesində də əsasən tərəflər bu prinsipləri gündəlik olaraq qəbul ediblər. İki ölkə arasında Rusiyanın, eyni zamanda, Avropa İttifaqının, həmçinin bu ilin sentyabrında prosesə qoşulan ABŞ-ın vasitəçiliyi ilə danışıqlar aparıldı. Sülh danışıqlarında müəyyən müsbət dinamika müşahidə olunsa da, hər hansı bir yekun nəticə əldə olunmayıb.

### İkitərəfli əlaqələr

**Həmçinin, bu ilin vacib xarici siyasətlərindən biri bu ilin fevral ayında Azərbaycanla Rusiya arasında "Müttəfiqlik fəaliyyəti haqqında" bəyannamənin imzalanmasıdır. Bu da ölkəmizin xarici siyasətində vacib hadisələrdən biri sayılmalıdır. Bu müqavilənin imzalanması ilə iki ölkə arasında münasibətlərin yeni mərhələyə daxil olduğunu qeyd edə bilərik.**

Eyni zamanda, Azərbaycanla Avropa İttifaqı arasında bu ilin yayında "Enerji memorandumu" imzalanıb. Bu memorandum da Azərbaycana Avropaya qaz ixracının artırılmasını nəzərdə tutur və təbii ki, bu amil də ölkəmizin Avropa üçün əhəmiyyətinin nə qədər artdığını təsdiq edir. Hazırda davam edən Rusiya-Ukrayna müharibəsi səbəbindən Avropa İttifaqı ciddi enerji problemləri ilə üzləşir. Məhz Aİ-nin enerji problemlərinin həllində Azərbaycan mühüm tərəfdaş dövlət kimi çıxış edir ki, bu da Aİ liderləri, dövlətləri tərəfindən yüksək dəyərləndirilir. Yəni enerji amili Azərbaycanın xarici siyasətində bu ildə öz mövqeyini qoruyub-saxlayır.

Eyni zamanda, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əlaqələr xeyli inkişaf edilib. Ölkə başçısı bu il ərzində bir neçə dəfə Mərkəzi Asiya ölkələrinə - Özbəkistana, Qazaxıstana, Qırğızıstana rəsmi səfərdə olub, eyni zamanda, regionun liderləri Azərbaycanda səfərdə olublar. Vacib sahələri əhatə edən bir çox məsələlərlə bağlı anlaşmalar, sazişlər imzalanıb ki, bu da Azərbaycan xarici siyasətində baş verən



hadisələrdən biridir. Eyni zamanda Azərbaycan və qardaş Türkiyənin liderləri qarşılıqlı səfərlər ediblər, sammitlərdə görüşlər keçiriblər. Azərbaycan-Türkiyə arasında strateji müttəfiqlik bu ildə daha da dərinləşdirilib. Siyasi, iqtisadi, diplomatik, eyni zamanda, hərbi sahədə də iki ölkə arasında əlaqələr xeyli dərinləşdirilib.

### İranın təxribatları

**Təbii ki, hazırda olduqca mürəkkəb proseslər baş verir. Bu dünyada, həm də yerləşdiyimiz coğrafiyada Azərbaycanın xarici siyasətinə təsirsiz ötüşməyə bilməz və təəssüf ki, son zamanlar bir sıra ölkələrlə Azərbaycanın münasibətlərində müəyyən problemlər yaranıb. Bu sırada İranı xüsusi qeyd etmək istərdim.**

Son aylarda İranla Azərbaycan arasında olduqca mürəkkəb münasibətlər yaranıb bu da İranın sərgilədiyi mövqe ilə bağlıdır. İran heç bir halda II Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqları qəbul etmək istəmir. Nəticədə bu da münasibətlərin pisləşməsinə səbəb olur.

Bütövlükdə Azərbaycanın xarici siyasətində 2022-ci ili uğurlu hesab etmək olar. Hesab edirəm ki, yaxın, orta və uzaq perspektivdə görüləcək bir çox işlərin də əsdası məhz 2022 ci ildə qoyulmuşdur.

### "Fərrux" və "Qisas" əməliyyatları

**2022-ci ilin ən yaddaqalan hadisələri sırasında "Fərrux" əməliyyatını xüsusilə qeyd etməliyəm. "Fərrux" əməliyyatı erməni silahlı qüvvələrinin Azərbaycan Silahlı Qüvvələrini təhrik etmələri üzündən**



**Elxan Şıxəliyev,**
hərbi ekspert

**baş verdi.** "Fərrux" əməliyyatının Qarabağın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə baş verməsi xüsusilə önəmli idi. Bu, bir qırılma nöqtəsi idi.

Ermənilər düşünürdülər ki, ərazidə sülhməramlılar varsa, Azərbaycan hansısa antiterror əməliyyatı keçirə bilməz. Sonrakı mərhələdə keçirilən "Qisas" əməliyyatı da Ermənistan silahlı qüvvələrinin təhriki ilə baş verdi. Nəticə etibarilə, çox önəmli strateji Qırxqız, Sarıbaba yüksəklikləri, xüsusən də hərbi təminat yolları Silahlı Qüvvələrimizin nəzarətinə keçdi. Silahlı Qüvvələrimiz həmin ərazilərimizdə çox böyük müşahidə qabiliyyətinə malik oldu. Yenə də erməni silahlı qüvvələrinin təxribatı ilə Azərbaycan Silahlı Qüvvələri 12-14 sentyabrda əməliyyat keçirərək, Zəngəzur torpaqlarında gələcəkdə buferzonaların yaradılacağı əraziləri nəzarətimizə keçirdi. Həmin əməliyyatdan sonra Azərbaycan strateji yüksəkliklərə nəzarət etməklə Ermənistanın dərinliklərində hərbi əməliyyatları öncədən görmək və müşahidə etmək, təhlükələrin qarşısını almaq imkanına sahib oldu.

### Silahlı Qüvvələrdə Türkiyə modeli

**Silahlı Qüvvələrimizin yeni ştat strukturunun yaradılması, quru qoşunları komandanlığının komondos briqadalarının, hərbi təhsil sistemimizin Türkiyə hərbi təhsil sisteminə keçidi yaddaqalan hadisələrdəndir.**



**Rəşad Bayramov,**
politoloq

Bunun zirvəsi Türkiyə Silahlı Qüvvələrinin generalı, Azərbaycan Silahlı Qüvvələrinin general-polkovniki Bəxtiyar Ersayın müdafiə nazirinin müşaviri təyin edilməsidir. Azərbaycan Türkiyə ilə birlikdə, Pakistan Gürcüstanla bərabər ikitərəfli, üçtərəfli 20-yə yaxın taktiki təlimlərdə iştirak etdi. O təlimlərdə həm döyüş hazırlıqlarını, həm də təcürbələrini müttəfiqləri ilə bölüşdülər.

2023-cü ildə də Silahlı Qüvvələrimizin qarşısında çox böyük strateji tapşırıqlar duracaq. 2023-cü il cənubdan gələn təhlükənin, Ermənistandan gələn revanişt addımların qarşısını almağımız üçün də mühüm il olacaq.

■ 2022-ci ildə yaddaqalan hadisələr içərisində "Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu", "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş", Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşünün keçirilməsi və həmin görüşdə xüsusilə də "Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Memorandum"un imzalanmasını, "Özbəkistan-Azərbaycan-Türkiyə" dialoq formatının iclasında Daşkənd bəyannaməsinin imzalanmasını və ümumiyyətlə, istər Avropa İttifaqı ölkələri, istərsə də Türk Dövlətləri Təşkilatı üzvləri arasında münasibətlərin inkişafı istiqamətində keçirilmiş görüşlər və əldə edilmiş razılaşmaları qeyd edə bilərəm. 2022-ci il Azərbaycan-Ermənistan münasibətlərinin normalaşması istiqamətində fəaliyyətlə də yadda qaldı. Bu istiqamətdə Brüsseldə, Praqada, Soçi və Sankt-Peterburqda keçirilmiş görüşlər şübhəsiz ki, keçən 2022-ci ilə öz damğasını vurdu.

### İsraildə səfirliyimiz açılacaq

**2022-ci ili siyasi olayları içərisində İsraildə səfirliyimizin açılması ilə bağlı qərarın verilməsi,**



**Qulam Hüseynəlibəyli,**
Aydınlar Partiyasının sədri

**eləcə də İranın Azərbaycana qarşı sərgilədiyi mövqeyə qarşı bütün cəmiyyət olaraq səfərbər olmağımızı da göstərmək istərdim.**

"Siyasi Partiyalar Haqqında" yeni qanunun qəbulunu da şübhəsiz ki, yola saldığımız ilin ən mühüm siyasi hadisələrindən biri kimi qeyd edərdim.

### Laçın yolunda aksiya

**Şübhəsiz ki, bu ilin ən çox yaddaqalan siyasi hadisələri içərisində Laçın yolunda ictimai fəalların, vətəndaş cəmiyyəti institutlarının, könüllülərin keçirdiyi aksiya xüsusi yer tutur.** İctimai fəallarımız, eko-aktivistlərimiz bu aksiya ilə həm rus sülhməramlılarına, həm ermənilərə və ümumiyyətlə, dünyaya çox vacib mesajlar verirlər.

■ **Mən də 2022-ci ildə Azərbaycanda ən yaddaqalan hərbi-siyasi olaylarına ilk növbədə Fərrux və "Qisas" əməliyyatlarını, sentyabr döyüşlərini aid edərdim.** "Mart ayında keçirilən əməliyyat nəticəsində Xocalı rayonunun Fərrux kəndi, Fərrux dağı, bir sıra yüksəkliklər işğaldan azad edildi. Ağdam şəhəri və rayonun 9 kəndinə düşmənin vizual nəzarət imkanı ləğv edildi, Xankəndi-Ağdərə avtomobil yoluna vizual nəzarət əldə olundu. Avqust ayında keçirilən "Qisas" əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, Buzdux dağı və ətrafındakı yüksəkliklər, Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli yüksəkliklər işğaldan azad edildi.

Sentyabr döyüşləri nəticəsində isə Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan Ordusunun mövqeləri arxasındakı əraziləri və təminat yollarının minalmaq məqsədilə istifadə etdiyi bir sıra yüksəkliklər ordumuzun nəzarətinə keçdi.

Nəhayət, dekabr ayında Azərbaycan vətəndaş cəmiyyəti fəallarının Laçın yolunda başladıqları və bu gün də davam edən aksiya da 2022-ci ilin ən yadda qalan hadisələrindən biri hesab oluna bilər".

Ölkədə yeni siyasi konfiqurasiyanın yaradılması və iqtidar müxalifət dialoqu ilə əlaqədar aparılan siyasət 2022-ci ildə də davam etdirildi. Bu sahədə ən yaddaqalan hadisə "Siyasi partiyalar haqqında yeni qanunun hazırlanması, Milli Məclisdə ictimai dinləmələrin keçirilməsi və qəbulu hesab oluna bilər. Bu qanun siyasi partiyalar tərəfindən birmənalı qiymətləndirilmsə də, ümid etmək istəyirəm ki, siyasi partiyaların fəaliyyətinin daha da canlanmasına və siyasi islahatların başa çatmasına kömək edəcək.

✍ *Tahirə Qafarlı*



# Azad edilmiş ərazilərdə işləyən mütəxəssislərlə bağlı mühüm qərar

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislər üçün güzəştlər müəyyənləşib. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Əmək Məcəlləsinə dəyişiklikdə əksini tapıb.**

Qanuna əsasən, xüsusi rütbəli şəxslər istisna olmaqla, işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssis peşə, orta ixtisas və ali təhsil haqqında dövlət sənədi və son 60 ay ərzində ən azı 24 ay əmək stajı olan və işğaldan azad edilmiş ərazilərdə əmək müqaviləsi (kontraktı) əsasında işləyən şəxsdir.

İşğaldan azad edilmiş ərazilərində 5 il müddətində - 1 yanvar 2023-cü ildən 1 yanvar 2028-ci ilədək işləyən mütəxəssislər aşağıdakı şərtlər birgə mövcud olduğu hallarda bu Məcəllədə və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulan güzəştlərdən və imtiyazlardan istifadə etmək hüququna malik olacaqlar:

- mütəxəssislərin əmək müqaviləsi (kontraktı) bağladıqları işəgötürən (o cümlədən hüquqi şəxs olduqda onun Vergi Məcəlləsinə uyğun olaraq uçota alınmış filialı, nümayəndəliyi) Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində vergi uçotunda olduqda;
- mütəxəssislərin əmək müqaviləsi (kontraktı) üzrə iş yeri Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə yerləşdikdə;
- mütəxəssislər Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məskunlaşdıqda;

Yuxarıda qeyd olunan şərtlər pozulduqda güzəştlərin və imtiyazların tətbiqi dayandırılacaq.

Bu mütəxəssislər xüsusi şəraitdə tətbiq edilən əmək haqqı alanlar kateqoriyasına daxil edilir. Başqa sözlə, azad edilmiş ərazilərində işləyən mütəxəssislərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımlar (əmsallar) müəyyən ediləcək.

Eyni zamanda, layihəyə əsasən, işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssislərin əlavə məzuniyyəti hüququ da müəyyənləşir, onlara əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq 5 təqvim günü müddətində əlavə məzuniyyət veriləcək. Bu mütəxəssislərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab edilmir.

# Daha 30 minə yaxın şəxsə 25 illik staj hədiyyə ediləcək



**Prezident İlham Əliyevin təsdiq etdiyi yeni Qanun pensiya sistemində növbəti humanist yanaşmanın tətbiqinə, pensiya təminatına əlçatanlığın artırılmasına xidmət edən daha bir addımdır.**

ƏƏSMN-dən hafta.az-a verilən xəbərə görə, "Əmək pensiyaları haqqında" Qanunda 2019-cu ilin əvvəlindən tətbiq olunan dəyişikliyə əsasən fərdi hesabında 01.01.2006-cı ildən 01.07.2018-ci ilədək dövr üzrə hər hansı məbləğdə pensiya kapitalı olan pensiya yaşına çatan şəxsə avtomatik 25 il sosial sığorta stajı (pensiya hüququ qazanmaq üçün də minimum staj tələbi 25 ildir) hədiyyə edilir. Nəticədə o, hətta heç bir stajı olmadıqda belə, pensiya hüququ qazanır.

Hədiyyə edilən həmin 25 il sığorta stajının 2023-cü ilin əvvəlindən artıq hər il üçün 1 il azaldılması nəzərdə tutulurdu.

Məsələn, fərdi hesabında 01.01.2006-cı ildən 01.07.2018-ci ilədək dövr üzrə hər hansı məbləğdə pensiya kapitalı olan şəxsə 2023-cü ildə artıq 25 il yox, 24 il, 2024-cü ildə 23 il, 2025-ci ildə 22 il və s. staj hesablanacaqdı və lazım olan minimum 25 illik stajın qalan hissəsi isə pensiya yaşına çatmış şəxsdən tələb olunacaqdı.

Təsdiqlənən yeni Qanun 25 il sığorta stajının hədiyyə edilməsi müddətinin 3 il uzadılmasını nəzərdə tutur. Yəni, qeyd edilən 25 il sığorta stajının hər il üçün 1 il azaldılması artıq 2023-cü ildən deyil, 2026-cı ildən tətbiq ediləcək.

Yaşlı əhaliyə humanist yanaşmanı göstərən bu islahat yaxın 3 ildə daha 30 minə yaxın şəxsin onlara 25 illik staj hədiyyə edilməsi nəticəsində pensiya hüququ əldə etməsinə, pensiya təminatının əhatəsinin daha da genişləndirilməsinə imkan verəcək.

# Qarabağda mədənləri qanunsuz istismarı dayandırıldı

**Azərbaycanın Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarını qanunsuz istismar edən "Base Metals" şirkəti fəaliyyətini dayandırdığını açıqlayıb.**

Şirkətin yaydığı məlumatda azərbaycanlı ekoaktivistlərin Laçın-Xankəndi yolunda keçirdiyi aksiya ilə əlaqədar şirkət rəhbərliyinin mədən fəaliyyətlərini müvəqqəti dayandırdığı və ekoloji ekspertizanın keçirilməsi üçün beynəlxalq təşkilatlara müraciət etmək qərarına gəldiyi bildirilib.

Qeyd olunub ki, BMT-nin müvafiq strukturlarına və digər aidiyyəti təşkilatlara qısa müddətdə ekspertizanın təşkil edilməsi üçün müraciət edilib.

Qeyd edək ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarını həyata keçirən "Base Metals" şirkəti ermənilərin "Vallex Group" konqlomeratının törəməsidir və



Xankəndidəki qondarma "hökumətin" əsas "vergi" ödəyicilərindən biridir. Lixtenşteyndə qeydiyyatdan keçmiş "Base Metals" şirkəti 2002-ci ildə Heyvalı kəndi yaxınlığındakı Qızılbulaq mis-qızıl yatağının qanunsuz istismarını həyata keçirib.

"Vallex Group"a isə Ermənistanın keçmiş Prezidenti Serj Sarkisyanın şəxsən "vətənə xidmətə görə" medalı ilə mükafatlandırdığı Rusiya vətəndaşı olan erməni biznesmen Valeri Mezhlumyan sədrlik edir.

# Dünya Ukrayna müharibəsi ilə silkələndi

## 2022-də dünyada baş verən ən önəmli hadisələr

***Olduqca acınacaqlı hadisələri ilə yadda qalacaq 2022-ci illə bir neçə gün sonra vidalaşacağıq. Geridə buraxdığımız 12 ay ərzində dünyamızda önəmli hadisələr baş versə də, təəssüf ki, xoşagəlməyən, ölüm-itimli olaylar daha çox oldu. Təbii fəlakətlər, insanların törətdiyi terror və hətta Rusiyanın Ukraynaya hücumlarının timsalında müharibə cinayətləri bəşəriyyət tarixinə qara hərflərlə həkk olundu. Hər halda, ümid edək ki, üzümüzə gələn 2023-cü il hər birimiz və bütün dünyamız üçün düşərli olacaq. İndi isə oxucularımız üçün maraqlı olar deyə il ərzində yaşanan ən vacib hadisələrdən bəzilərini aylar üzrə sıralayaq:***

## Araşdırma

**Yanvar:**

Yanvarın 2-də Qazaxıstanın qərbində maye qazın (LPG) bahalaşması və ölkədə sosial-iqtisadi vəziyyətin pisləşməsi səbəbi ilə başlayan nümayişlər ölkənin digər bölgələrinə də sirayət edib. Prezident Kasım-Jomart Tokayev etirazlara görə ittihamladığı hökuməti istefaya göndərib. Etirazların genişlənməsi ilə yanvarın 5-dən 19-dək ölkə ərazisində fövqəladə vəziyyət elan edilib və 10 günlük hadisələrdə 225 nəfər həlak olub. Yanvarın 10-da həlak olanlar üçün ümummilli matəm elan edilib. Hadisələrə görə 10 minə yaxın adam saxlanılıb.

Yanvarın 11-də ABŞ-ın Merilend ştatındakı xəstəxanada ölmək üzrə olan 57 yaşlı David Bennettə donuz ürəyi köçürülüb. Amma Bennett martın 9-da vəfat edib. Yanvarın 23-də Burkina Fasoda bir qrup əsgər hakimiyyəti ələ keçirdiklərini elan edib, yanvarın 24-də isə dövlət televiziyası RTB-də çevriliş bəyanatı oxuyublar. Həbsdə olan prezident Roç Kristian Kabore yanvarın 25-də istefa verib, o. saxlanılıb və aprelin 7-də sərbəst buraxılıb.

Çevrilişin arxasında duran şəxs, polkovnik-leytenant Paul-Henri Sandaogo Damiba özünü prezident və baş komandan elan edib. Damiba fevralın 16-da prezident kimi and içib.

Yanvarın 26-da İsrail istehsalı olan "Pegasus" casus proqramlarının istehsalçısı "NSO Group"un icraçı direktoru Aşer Levi istefa verib. Bütün dünyada bu proqram vasitəsilə telefonlardan şəkil çəkmək kimi casusluq fəaliyyətləri üçün istifadə edildiyi ortaya çıxıb. Bildirilib ki,



Azərbaycan, Salvador, Fransa, İngiltərə, Polşa, Macarıstan, Hindistan, Qazaxıstan, Ruanda, Mərakeş, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Fələstin və İordaniyada çox sayda insan "Pegasus" casus proqramları ilə izlənilib.

**Fevral:**

Fevralın 1-də Azərbaycan Milli Məclisi Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri rəsmi olaraq müttəfiqlik səviyyəsinə çatdıran Şuşa Bəyannaməsini ratifikasiya edib. Fevralın 3-də ABŞ Prezidenti Co Bayden amerikalı hərbçilərin Suriyada keçirdiyi əməliyyatda İŞİD-in lideri Əbu İbrahim əl-Haşimi əl-Qureyşinin öldürüldüyünü açıqlayıb.

Fevralın 24-də Rusiya Prezidenti Vladimir Putin "Ukraynanın şərqində Donbasda xüsusi hərbi əməliyyata" başladıqlarını açıqlayıb. Beləliklə, Rusiya-Ukrayna müharibəsi başlayıb. Ukrayna prezidenti Vladimir Zelenski fevralın 25-də ölkə daxilində ümumi səfərbərlik elan edən fərmanı imzalayıb.

Rusiya siyasətçiləri və iş adamları, xüsusən də Putin Avropa İttifaqı və bəzi ölkələrin sanksiyalarının hədəfinə çevrilib. Fövqəladə sammitdə görüşən NATO liderləri Rusiyanın Ukraynaya "işğalını" pisləyiblər. Rusiya fevralın 26-da Birləşmiş BMT TŞ-da keçirilən səsvermədə Ukraynadakı hücumları pisləyən qətnaməyə veto qoyub.

**Mart:**

Martın 8-də Avropa Parlamenti Rusiya-Ukrayna müharibəsi ilə bağlı keçirilən növbədənkənar sessiyasında Ukraynanın Aİ-yə üzvlüyünü dəstəkləyən qətnamə layihəsini qəbul edib. ABŞ prezidenti Co Bayden Rusiyanın Ukraynaya hücumuna görə ABŞ-ın hava məkanını bütün Rusiya təyyarələri üçün bağladığını açıqlayıb. BMT Baş Assambleyası Rusiyanın Ukraynaya hücumunu pisləyən qətnaməni 141 səslə qəbul edib.

Ağ Ev Rusiya-Ukrayna müharibəsi ilə bağlı Rusiya və Belarusa qarşı yeni müdafiə sanksiyaları tətbiq etmək qərarına gəlib. BMT İnsan Hüquqları Şurası Rusiyanı qınayan və Ukraynada bütün insan haqları pozuntularını araşdıracaq beynəlxalq müstəqil araşdırma komissiyasının yaradılmasına dair qətnamə layihəsini qəbul edib.

Martın 14-də "Covid-19" peyvəndini hazırlayan türk əsilli elm adamları, professor Özlem Türeci, professor Uğur Şahin və Macarıstan əsilli alim, professor Katalin Kariko Almaniyada tibb dünyasının ən mühüm mükafatlarından biri sayılan "Paul-Ehrlich and Ludwig Darmstaedter 2022 Award"ı alıb.

Martın 21-də Çində, içərisində 132 nəfər olan China Eastern Airlines şirkətinə məxsus "Boeing 737" sərnişin təyyarəsi Quanqsi əyalətinin dağlıq bölgəsində qəzaya uğrayıb. Qəzadan sağ qalan olmayıb. Martın 28-də ABŞ-da keçirilən 94-cü Oskar Mükafatları mərasimində "Ən yaxşı film" mükafatını "CODA", bu filmdəki performansına görə "Ən yaxşı ikinci plan aktyoru" mükafatını qazanan Troy Kotsur ilk eşitmə qüsurlu aktyor kimi tarixə düşüb. Pakistan əsilli britaniyalı aktyor Riz Əhməd "The Long Goodbye" adlı canlı qısametrajlı filminə görə mükafat alan ilk müsəlman olub. Mərasim məşhur aktyor Uill Smitin səhnədə həyat yoldaşı ilə zarafat edən aparıcı Kris Roka sillə vurması ilə yadda qalıb.



**Aprel:**

Aprelin 10-da Fransada keçirilən prezident seçkilərində 12 namizəddən heç biri birinci turda tələb olunan 50 faiz limitini aşa bilməyib. Birinci turda ilk yerdə olan prezident Emmanuel Makron və ikinci olan Marin Le Pen aprelin 24-də keçirilən ikinci turda mübarizə aparıb. Prezident Makron 58,54 faiz, Le Pen isə 41,46 faiz səs toplayıb.

Aprelin 13-də İsrail polisinin Şərqi Qüdsdə Məscidül-Əqsaya təşkil etdiyi basqında 180-dən çox adam yaralanıb. Fələstin, İordaniya, Misir və Əlcəzair kimi ölkələrin qınadığı basqın bir çox ölkədə müsəlmanlar tərəfindən etirazla qarşılanıb. Aprelin 28-də Egey dənizində qeyri-qanuni miqrantların Yunanıstan hərbçiləri tərəfindən dənizdə geri qaytarılmasında Avropa İttifaqının Sərhəd və Sahil Mühafizəsi Agentliyinin (Frontex) rolu olduğu üzə çıxıb. "Lighthouse Reports", "Der Spiegel", "SRF Rundschau", "Republik" və "Le Monde"un birgə apardığı araşdırmaya görə, "Frontex"in məlumat bazasında Egey dənizində yüzlərlə qeyri-qanuni miqrantın geri qaytarıldığı qeydləri var. "Frontex"in direktoru Fabrice Leggeri aprelin 29-da tutduğu vəzifədən istefa verib.

**May:**

Mayın 8-də Finlandiya və İsveç NATO-ya üzv olmaq üçün rəsmi ərizə məktublarını NATO-nun baş katibi Yens Stoltenberqə təqdim ediblər.

Mayın 19-da tarixinin ən pis iqtisadi böhranı ilə mübarizə aparan Şri-Lanka ilk dəfə borcunu ödəyə bilməyib və defolt vəziyyətinə düşüb. Bu müddət ərzində ölkədə hökumət əleyhinə etirazlar şiddətləndiyi üçün Müdafiə Nazirliyi hərbçilərə nümayişlər zamanı ictimai əmlaka və ya başqalarına ziyan vuran hər kəsə atəş açmağı tapşırıb.

**İyun:**

İyunun 22-də Əfqanıstanın şərqindəki Paktika əyalətində baş verən zəlzələ nəticəsində 1150 nəfər həlak olub, ən azı 1600 nəfər yaralanıb. Bildirilib ki, zəlzələdə 3 minə yaxın ev dağılıb və ya ciddi ziyan dəyib.

İyunun 23-də Avropa İttifaqı ölkələrinin liderləri Ukrayna və Moldovaya "namizəd ölkə" statusunun verilməsi barədə qərar qəbul ediblər.

**İyul:**

İyulun 7-də Böyük Britaniyanın Baş naziri Boris Conson hakim Mühafizəkarlar Partiyasının lideri vəzifəsindən istefa verib. İyulun 8-də Yaponiyada Yuxarı Palataya seçki ərəfəsində, ölkənin ən uzunmüddətli baş nazir vəzifəsini icra etmiş Şinzo Abe Liberal Demokrat Partiyasının namizədinin seçilməsinə dəstək üçün iyulun 8-də açıq havada keçirilən tədbirdə çıxışı zamanı sinəsindən güllə yarası alıb. Ağır xəsarətlərlə xəstəxanada dünyasını dəyişən Abe üçün sentyabrın 27-də, dünyanın hər yerindən təşrif buyurmuş 700-ə yaxın dövlət və hökumət nümayəndəsinin iştirakı ilə rəsmi dəfn mərasimi keçirilib.

İyulun 22-də Türkiyə, Ukrayna, Rusiya və BMT arasında imzalanan taxıl daşınması müqaviləsi sayəsində avqustun 1-də ilk gəmi Odessa limanından yola çıxıb. İyulun 19-da Rusiya prezidenti Vladimir Putin prezident Rəcəb Tayyib Ərdoğana Qara dəniz vasitəsilə taxıl ixracı və ərzaq məsələlərində vasitəçilik səylərinə görə təşəkkür edib. İyulun 26-da Ağ Evin Milli Təhlükəsizlik Şurasının Strateji Kommunikasiyalar üzrə direktoru Con Kirbi prezident Ərdoğana Ukraynadan taxıl çıxarılması üçün Birgə Koordinasiya Mərkəzinin yaradılmasında göstərdiyi səylərə görə minnətdarlıq edib.

İyulun 23-də Ümumdünya Səhiyyə Təşkilatı meymun epidemiyasını Beynəlxalq İctimai Səhiyyə Fövqəladə Vəziyyəti elan etdi.

**Avqust:**

Avqustun 1-də Kosovo hökumətinin ölkədəki serblərə milli nömrə və şəxsiyyət sənədi verməklə bağlı qərarı 1 ay təxirə saldığı və bu səbəbdən Serbiya ilə böhrana səbəb olduğu bildirilib. NATO-nun Kosovodakı Qüvvələri (KFOR) Kosovonun şimalında sabitliyə təhlükə yaranarsa, müdaxilə etməyə hazır olduğunu açıqlayıb. Avqustun 2-də Serbiya prezidenti Aleksandar Vucic bildirib ki, Kosovo müstəqil ölkə deyil, beynəlxalq hüquqa əsasən Serbiyanın bir hissəsidir. Avqustun 2-də ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosi və onu müşayiət edən Konqres nümayəndə heyətini daşıyan təyyarə Tayvana enib. Çin Xarici İşlər Nazirliyi Pelosinin Tayvana səfərini odla oynamaq kimi son dərəcə təhlükəli adlandırıb. Adanı öz ərazisinin bir parçası kimi görən Çin səfərdən sonra real silah və sursatlardan istifadə edərək adanın ətrafında hərbi təlimlərə başlayıb.

Avqustun 30-da keçmiş Sovet İttifaqının sonuncu prezidenti Mixail Qorbaçov vəfat edib. Həmin gün Venesuelada məşhur inqilabçı lider Ernesto Çe Gevaranın oğlu Camilo Gevara da 60 yaşında dünyasını dəyişib.

**Sentyabr:**

Sentyabrın 8-də İngiltərə kraliçası II Yelizaveta 96 yaşında Şotlandiyanın Balmoral qəsrində vəfat edib. Kraliçanın ölümü ilə bağlı fanatlar yas tutarkən, bəzi ölkələrdə matəm elan olunub. Kraliça Elizabetin dəfn mərasiminə qədər saxlanıldığı Westminster sarayındakı tabutunu 250 minə yaxın insan ziyarət edib. II Yelizavetanın rəsmi dəfn mərasimi sentyabrın 19-da tarixi Westminster Abbey kilsəsində dünyanın bir çox yüksəksəviyyəli dövlət rəsmilərinin iştirakı ilə keçirilib. Kraliçanın ölümündən sonra onun 73 yaşlı oğlu Çarlz taxta çıxıb.

Sentyabrın 13-də İranın paytaxtı Tehranda "əxlaq polisi" kimi tanınan İrşad patrul qrupları tərəfindən saxlanılan 22 yaşlı Məhsa Əmininin təcridxanada həlak olması səbəbindən sentyabrın 16-da ölkədə etirazlar aksiyalarına start verilib. Rəsmi mənbələr aylardır davam edən etiraz aksiyalarında yüzlərlə insanın öldüyünü bildirir, lakin ölənlərin sayı barədə dəqiq məlumat verilmir.

Qərargahı Norveçdə yerləşən İran İnsan Haqları Təşkilatı noyabrın 22-də nümayişlərdə 416 nəfərin öldüyünü açıqlayıb. Avropa İttifaqı sentyabrın 25-də etirazları yatırmaq üçün zorakılığa yol verməməyə və ictimai internetə çıxışa icazə verməyə çağırıb. Aminin ölümü dünyanın bir çox şəhərində etiraz aksiyası keçirib.

Sentyabrın 3-da Burkina Fasoda hərbçilər ölkədəki təhlükəsizlik vəziyyətini əsas gətirərək hakimiyyəti ələ keçirib. Kapitan İbrahim Traore və tərəfdarları ölkə problemlərində yanvar ayında



baş vermiş çevrilişə Damibanın dəstəyinin yetərli olmadığını iddia edərək hökuməti ələ keçirdiklərini, konstitusiyanın fəaliyyətinin dayandırıldığını, ölkə sərhədlərinin bağlandığını, hökumətin buraxıldığını, saat 21.00-05.00 arasında ölkə daxilində komendant saatı elan edildiyini, hər cür siyasi və QHT fəaliyyətlərinin dayandırıldığını açıqlayıblar.

**Oktyabr:**

Oktyabrın 1-də İndoneziyada futbol matçı zamanı polisin davanı dayandırmaq üçün gözyaşardıcı qazdan istifadə etməsi nəticəsində yaranan izdihamda 133 nəfər həlak olub.

Oktyabrın 24-də İngiltərədə hakim Mühafizəkarlar Partiyasının liderlik yarışında qalib gələn Hindistan əsilli Rişi Sunak ölkənin yeni baş naziri seçilib. Sunak oktyabrın 20-də partiya lideri vəzifəsindən istefa verən Liz Trussı əvəz etmək üçün mübarizə aparıb. Truss 53 günlük hakimiyyətlə ölkədə ən qısa müddətə lider oldu.

Oktyabrın 29-da Cənubi Koreyanın paytaxtı Seulda keçirilən Halloveen tədbirlərində yaranan izdihamda 156 nəfər ölüb. İzdiham Seulun əyləncə mərkəzlərindən biri olan İtaevon rayonunda baş verib. Dar küçədə qalaqlanan və yol kənarındakı tibb işçiləri tərəfindən ürək masajı ilə həyata qaytarılmağa çalışan insanların görüntüləri dünya gündəminə çevrilib. Həyatını itirənlərdən bəzilərinə qəfil ürək dayanması diaqnozu qoyulub.

**Noyabr:**

Noyabrın 7-də laboratoriyada istehsal olunan qan klinik sınaq çərçivəsində ilk dəfə insana köçürülüb. Transplantasiya İngiltərənin Bristol, Kembric və London alimlərinin ağciyərlərdən bədənə oksigeni daşıyan qırmızı qan hüceyrələri üzərində apardıqları işlər sayəsində baş tutub. Noyabrın 15-də Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA) dünya əhalisinin 8 milyard nəfərə çatdığını bildirib. UNFPA-nın dərc etdiyi hesabata görə, dünya əhalisinin 2030-cu ildə 8,5 milyarda, 2050-ci ildə 9,7 milyarda, 2100-cü ildə isə 10,4 milyarda çatacağı təxmin edilir.

Noyabrın 16-da ABŞ Aerokosmik Agentliyinin (NASA) Aya qayıdış layihəsi çərçivəsində orbitə buraxdığı Orion kapsulu "ən uzaq məsafə" rekordunu qırıb. Bildirilib ki, kapsul təxminən 430 min kilometr yol qət edib və bu, "insanları daşımaq üçün nəzərdə tutulmuş kosmik gəminin səyahət edə biləcəyi ən uzun məsafə rekordu" olub. Noyabrın 30-da ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) Əbu İbrahim əl-Haşimi əl-Qureyşinin ölümündən sonra İŞİD-in başına keçən Əbu əl-Həsən əl-Haşimi əl-Qureyşinin də öldürüldüyünü açıqlayıb.

**Dekabr:**

Dekabrın 7-də Almaniyada dövlət çevrilişi planlaşdıran qrup üçün təşkil edilən əməliyyatda saxlanılan 25 nəfərdən 8-i həbs edilib. Bir çox əyalətdə həyata keçirilən basqınlarda saxlanılan üçün "terror təşkilatına üzv olmaq və ya dəstək vermək" ittihamı ilə həbs qərarı çıxarılıb. Saxlanılanlar arasında keçmiş hərbçilər də olub.

Dekabrın 7-də Peruda Prezident Pedro Kastillo hökuməti devirməyə cəhddə ittiham etdiyi Konqresi buraxmaq qərarından sonra saxlanılıb. Pedro Kastilyonun Konqres tərəfindən vəzifəsindən azad edilməsindən sonra vitse-prezident Dina Boluarte ölkənin ilk qadın prezidenti kimi vəzifəyə başlayıb. Ölkədə hökumət əleyhinə nümayişlər keçirilib.

Dekabrın 8-də Rusiya ilə ABŞ arasında əsir mübadiləsi həyata keçirilib. Rusiya amerikalı qadın basketbolçu Britni Qrineri, ABŞ isə rusiyalı silah qaçaqmalçısı Viktor Butu azadlığa buraxıb.

Dekabrın 15-də Aİ liderləri Bosniya və Herseqovinaya namizəd statusunun verilməsini təsdiqləyiblər. Aİ-nin genişlənmədən məsul komissarı Oliver Varhelyi qərarın açıqlanmasından sonra verdiyi açıqlamada, "Bu, tarixi bir qərardır. Bosniya və Herseqovinanın gələcəyi Aİ-dədir" deyib. Dekabrın 18-də Argentina Qətərdə keçirilən futbol üzrə dünya çempionatının finalında penaltilər seriyasında Fransanı 4:2 hesabı ilə məğlub edib. Bununla da Argentina 36 ildən sonra yenidən çempionluq kubokunu qazanıb.

✍ ***Vüsal Tağıbəyli***



■ **Dekabr ayı ərzində Kliniki Tibbi Mərkəzə (KTM) zəhərlənmə ilə bağlı 891 nəfər müraciət edib.**

Mərkəzin Mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, onlardan 126 nəfəri Toksikologiya şöbəsinə qəbul edilib, digərlərinə isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Qəbul olan xəstələrdən 62-si dərmandan, 15-i sirkə turşusundan, 14-ü dəm qazından, 7-si alkoqollu içkidən, 4-ü göbələkdən, 12-si botulizmdən zəhərlənib. Digərlərindən 5-i anafilaksiya, 7-si allergik reaksiya səbəbindən xəstəxanaya yerləşdirilib. Zəhərlənən şəxslərin 51-i qadın, 47-i kişi, 28-i isə uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 1 nəfər dərman zəhərlənməsindən, 5 nəfər sirkə turşusundan, 1 nəfər dəm qazından, 1 nəfər isə botulizmdən dünyasını dəyişib.




■ **Gələn ilin yanvar ayında ölkədə və Naxçıvanda fəaliyyət göstərən qurumların, sahibkarların, Prezidentin Naxçıvandakı xüsusi nümayəndəsinin ofisinin iştirakı ilə Naxçıvanda böyük tədbir planlaşdırırıq.**

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib. "Hədəfimiz budur ki, Naxçıvanda tam reallaşdıra bilmədiyimiz iqtisadi potensialı, insan potensialını, coğrafi potensialı, həm qardaş Türkiyə ilə olan coğrafi yaxınlığı, həm də eyni zamanda xüsusi ticarət tərəfdaşlığı rejimindən irəli gələn imkanları təbii olaraq sahibkarlıq mühitini aidiyyatı dövlət orqanlarımız ilə sahibkarlar arasında əlaqələrin daha səmərəli şəkildə artırılması istiqamətində diskussiyamızı keçirək.



■ **"Rəşt-Astara dəmir yolu xəttinin tamamlanması üçün Rusiya və Çini gözləməyəcəyik". Bunu İranın yol və şəhərsalma nazirinin müavini Xeyrullah Xademi deyib.**

O bildirib ki, İranın dəmir yolu layihələri içində prioritet Rəşt-Astara dəmir yolu layihəsinin təkmilləşdirilməsidir: "Layihənin texniki işləri görülüb, mühəndislik işləri başa çatıb, texniki smeta da aparılıb, sərmayə yatırmaq istəyən investorlara müqavilə göndərmişik, maliyyələşmə təmin olunan kimi layihənin icrasına başlayacağıq".

O qeyd edib ki, bu layihəni başa çatdırmaq üçün 800 milyon avro lazımdır: "Rusiya hələ bizə maliyyə təklifi verməyib. Ruslardan yaxşı təklif gəlsə, biz, onu qəbul edəcəyik.



■ **Yanacaqdoldurma məntəqələrində bütün təhlükəsizlik qaydalarına əməl edilməsi mütləqdir. Bunu Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin Kimya, neft-kimya və neftqaz emalı sənayesində işlərin təhlükəsiz görülməsində nəzarət müfəttişliyinin rəisi Eltun Həsənov jurnalistlərə keçirilən təlim zamanı deyib.**

O bildirib ki, yanacaqdoldurma məntəqələrinin mütləq müəyyən mühafizə zonası olmalıdır: "Yanacaqdoldurma məntəqələri tikililərdən ən azı 50 metr aralıda olmalıdır. Lakin məsafələr yanacaqdoldurma məntəqəsinin sutkalıq xidmət göstərdiyi avtomobillərin sayından asılı olaraq dəyişə bilər".



■ **Azərbaycan Vəkillər Kollegiyası tərəfindən Cinayət Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı təkliflər hazırlanır. Bunu Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov deyib.**

O bildirib ki, dəyişiklik ekosid barədədir: "Bilirsiniz ki, ermənilər tərəfindən Azərbaycan ekologiyasına böyük zərər dəyib və bu proses davam edir. Azərbaycan Vəkillər Kollegiyası da həmin məsələlərə həssas yanaşır. Buna görə də kollegiyanın tərkibində fəaliyyət göstərən cinayət hüququ qrupu müvafiq təkliflər hazırlayıb. Təklif edirik ki, Cinayət Məcəlləsinə ekosid adlı maddə əlavə edilsin. Əgər çox ciddi, uzun sürən ekoloji terror aşkarlanarsa, belə bir maddə ilə məsuliyyət yaransın.



■ **Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrinin VII və IX sinifləri üzrə dekabrın 27-də monitorinq keçirilib.**

Bu barədə hafta.az-a BŞTİ-dən məlumat verilib. Bildirilib ki, BŞTİ tərəfindən keçirilən monitorinqin əsas məqsədi şagirdlərdə bilik və bacarıqların formalaşma səviyyəsini müəyyən etmək, buraxılış imtahanlarının nəticələrinə mənfi təsir edən səbəbləri aşağı siniflərdən aşkar etmək və tədrisin keyfiyyətinin daha da artırılmasına nail olmaqdan ibarətdir. Monitorinq təlim dili, riyaziyyat və xarici dil fənləri üzrə keçirilib. Təhsilalanlara təlim dili üzrə 4-ü açıq sual olmaqla 30, riyaziyyat fənni üzrə 4-ü açıq cavab tələb olunan, 4-ü isə açıq həlli tələb olunan sual olmaqla 25, xarici dil üzrə isə 4-ü açıq olmaqla 30 sual təqdim olunub.

**Azərbaycan iqtisadiyyatı daha bir ili başa vurmaq üzrədir. Ümumilikdə yanaşdıqda, cari ilin 11 ayının göstəriciləri onu deməyə əsas verir ki, iqtisadiyyatda pandemiyanın təsirlərindən sonrakı bərpa prosesi davam edib.**

# Bahalaşma, inflyasiya...

## İqtisadiyyat



### 2022 - kəskin inflyasiya ili

**Əslində dünya iqtisadiyyatı 2022-ci ilə böyük ümidlərlə başlamışdı. Çünki əvvəlki illərlə müqayisədə pandemiyanın zəifləməsi fonunda yumşalmaların iqtisadi fəaliyyəti canlandırması gözlənirdi.**

Amma Rusiya-Ukrayna müharibəsi bütün proqnozları alt-üst etdi və 2022-ci il kəskin inflyasiya ili kimi yaddaşlarda qaldı. Təbii ki, dünyanın bir parçası olan Azərbaycan iqtisadiyyatında da bahalaşmanı 2022-ci ilin əsas iqtisadi mövzusu hesab etmək olar. Rəsmi məlumatlara görə, il ərzində qeydə alınan inflyasiya 13.8 faiz olub. Bu, 2008-ci ildən bəri (20.8 faiz) Azərbaycanda qeydə alınan ən yüksək göstəricidir. Sırf ərzaq inflyasiyasına baxanda qiymət artımlarının daha kəskin olduğu gözə çarpır. Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda ərzaq məhsulları son bir ildə düz 21 faiz bahalaşıb. Əhali xərclərinin 60 faizə yaxınını ərzaq məhsullarına sərf edib. Bu baxımdan, aydın olur ki, il ərzində qiymət artımları əhalinin rifahına ciddi təsir göstərib.

### Neft bahalaşdı, gəlirlərimiz artdı

**Məlum məsələdir ki, ölkə büdcəsinin təxminən yarısı birbaşa Neft Fondundan transferlər hesabına formalaşdığından**



**dünya bazarlarında enerji qiymətləri Azərbaycanın büdcə gəlirləri baxımından da çox önəmlidir.**

2022-ci il boyunca baş verən geosiyasi hadisələr enerji qiymətlərinin hökumətin gözləntilərini də aşmasına səbəb oldu. 2022-ci ilin büdcəsi qəbul edilərkən il ərzində büdcədə neftin bir bareli 50 dollardan hesablanmışdı. Ancaq ilin böyük bir hissəsində neftin qiyməti 100 dollardan yüksək oldu. Elə bu səbəbdən də ilin ortasında Azərbaycanda büdcəyə yenidən baxılaraq dəyişikliklər edildi. Yeni büdcədə neftin bir barelinin qiyməti artıq 85 dollardan hesablandı. Bu baxımdan, ilin ortasında büdcəyə yenidən baxılması və yeni büdcənin qəbulu Azərbaycanda 2022-ci ilin əsas iqtisadi hadisələrindən biri sayıla bilər. Azərbaycanda enerji məsələləri ilə bağlı 2022-ci ildə baş verən digər bir vacib məsələ təbii qaz gəlirlərinin kəskin artmasıdır. Öncəki illərdə ölkənin enerji gəlirlərinin əsas bölümü neftdən, daha kiçik hissəsi isə təbii qazdan gəlirdi. Məsələn, 2019-cu ildə Azərbaycanın toplam ixrac gəlirlərinin cəmi 12 faizi təbii qaz gəlirlərindən ibarət idi. 2022-ci ilin 11 ayında isə təbii qaz ixracı toplam ixracın 41 faizinə yüksəlmişdi.

Təbii qaz ixracından gəlirlərin artması bir neçə amilə bağlıdır. Bunlardan biri son illər yeni kəmərlərin işə düşməsidir. İnfrastruktur imkanlarının artması ixrac edilən təbii qazın da həcmini artırıb. Digər tərəfdən, 2022-ci ilin əvvəlində Rusiyanın Ukraynaya təcavüzü də bu məsələdə rol oynayıb. Avropanın Rusiyadan təbii qaz asılılığı Rusiyaya tətbiq edilən sanksiyalar fonunda risk amilinə çevrilib. Bu da dünya bazarlarında təbii qazın qiymətləri kəskin artırıb.

### Azərbaycan etibarlı tərəfdaş olduğunu sübut edir

**Qeyd edək ki, hər bir ölkə üçün enerji təhlükəsizliyi məsələsi vacib amil sayılır. Bu mənada, Azərbaycan nəinki öz enerji təhlükəsizliyini təmin etmiş durumdadır, bu sahədə digər ölkələr üçün də mühüm rol oynayır və bunu getdikcə, genişləndirməkdədir.**

Bu il Azərbaycan bununla bağlı olduqca mühüm addımlar atdı. Belə ki, ilin daha bir mühüm hadisəsi iyul ayında Avropa Komissiyası Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri zamanı ölkəmizlə adıçəkilən qitə arasında qaz təchizatı 2 dəfəyədək artırmaq haqda Anlaşma Memorandumunun imzalanması oldu. Xatırladaq ki, 2021-c ildə ümumi qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil edib. Bunun da 8,2 milyard kubmetri Avropaya nəql olunub. Bu, əvvəlki ildən 40 faiz çox deməkdir. Bu il üçünsə 22 milyard kubmetr ixrac təşkil edəcək ki, bunun da 11,3 milyard kubmetrini Avropa alıb. Gələn il üçünsə Azərbaycanın təbii qaz ixracı həcmi ümumən 24 milyard kubmetr təşkil etməklə 11,6 milyard kubmetrdən çox hissəsi "qoca qitə"yə axacaq. Yuxarıda adını qeyd etdiyimiz anlaşmaya əsasən Avropaya qaz ixracının 2 dəfəyə kimi artırılması 2027-ci ilədək həyata keçiriləcək.

Azərbaycanla Avropa arasında yeni bir enerji körpüsü daha qurulur. Qeyd edək ki, yaşıl enerji əsasında istehsal olunan elektrik enerjisinin Avropaya ixracının hədəflənməsi Azərbaycanın enerji strategiyasında yeni mərhələ sayıla bilər. Bu baxımdan 2022-ci ilin dekabrın 17-də Buxarestdə "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında "imzalanan saziş xüsusi əhəmiyyət kəsb edir. Sənədi Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Rumıniyanın Baş naziri Nikolae Çiuça və Macarıstanın Baş naziri Viktor Orban imzalayıb. İmzalanma mərasimində Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen iştirak edib.

Rumıniya Prezidentinin rəsmi saytının məlumata görə, saziş Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin və əlaqələrinin gücləndirilməsini, təchizat

## 2022-nin iqtisadi mənzərəsi



mənbələrinin şaxələndirilməsini, Xəzər regionunda bərpa olunan enerji istehsalı potensialından istifadə edilməsini nəzərdə tutur və dörd dövlətin maraqlarına cavab verir. Prezident İlham Əliyev isə imzalanma mərasimində Azərbaycanın bərpaolunan enerji sahəsində potensialının böyük olduğunu vurğulayıb: "Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 giqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə, külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq. Beləliklə, yalnız təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaqdır," Əliyev qeyd edib. Onun fikrincə, sənəd yaşıl enerji təhlükəsizliyinin yaradılması üçün olduqca mühüm sazişdir: "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" bizim Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə daha bir ümumi töhfəmiz olacaq. Saziş yaşıl enerji dəhlizinin yaradılması üçün olduqca vacib bir sənəddir". Avropa rəsmilərinin də son bəyanatları Ukrayna-Rusiya müharibəsindən sonra qitəni təhdid edən enerji böhranı fonunda yenidən etibarlı tərəfdaş olan Azərbaycana üz tutmalarını təsdiqləyir.

Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen deyib ki, Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır: "İmzalanan sənəd Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracaq. Bu bizim hər iki regionumuzda təmiz enerjiyə çatmağa yardım edəcək. Bərpaolunan enerji mənbələrinin artmaqda olan payını inteqrasiya etmək üçün bizə güclü elektrik enerjisi interkonnektorları lazımdır. Məhz buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir".

Macarıstanın Baş naziri Viktor Orban vurğulayıb ki, Azərbaycanın və Prezident Əliyevin Avropa İttifaqı ilə əməkdaşlığa həmişə açıq olması təqdirəlayiqdir: "Avropa Komissiyasının müdrikliyinə görə biz Azərbaycana çox diqqət yetirdik, onunla əməkdaşlığımızı inkişaf etdirdik. Azərbaycanın və Prezident Əliyevin Avropa İttifaqı ilə əməkdaşlığa həmişə açıq olması təqdirəlayiqdir. Mən özüm də bir il ərzində Avropa İttifaqının həmişə Azərbaycana etibarlı tərəfdaş kimi etibar edə biləcəyinin şahidi olmuşam".

Avropanın qonşuluq və genişlənmə siyasəti üzrə komissarı Oliver Varheyli əmindir ki, ikitərəfli əməkdaşlıq iqtisadi və sosial fayda gətirəcək: "Planlarımızın necə gerçəkləşdiyini görəndə həmişə sevinirəm. 17 milyard avro dəyərində olan Qara dənizin enerji təchizatı üçün sualtı kabelin çəkilməsi qarşılıqlı iqtisadi və sosial fayda gətirəcək". Beləliklə, həyata keçirilən uğurlu enerji siyasəti Azərbaycanın Avropa qitəsindəmövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir və Avropa İttifaqı, həmçinin quruma üzv olan dövlətlər etibarlı tərəfdaş olan Azərbaycanla münasibətlərin yeni mərhələsinə qədəm qoyur.

### Azad olunmuş ərazilərimizdə iqtisadiyyat da dirçəldilir

**Bu ilin mənzərəsinə nəzər yetirərkən işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və qurulması istiqamətində aparılan işlərə toxunmamaq mümkün deyil.**

İşğaldan azad olunan ərazilərdə Füzuli Beynəlxalq Hava Limanından sonra inşa edilən ikinci beynəlxalq aeroport - Zəngilan Beynəlxalq Hava Limanın açılışı 2022-ci ildə bu baxımdan ən mühüm hadisələrdən oldu. Cəmi 1 il 6 ay ərzində tikilib istifadəyə verilən Zəngilan Beynəlxalq Hava Limanı ən yüksək dünya standartlarına uyğun sayılır. Və bu tikili Zəngəzur dəhlizi üzrə ən mühüm hava nəqliyyatı infrastruktur rolunu oynayacaq. Limanın uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr, terminalın buraxılış qabiliyyəti saatda 200 sərnişindir. Bu tikili bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək iqtidarındadır.

✍ Sevinc

# Təhsildə yeniliklər ili

**2022-ci ili geridə qoymağa hazırlaşırıq. Bu il həm Azərbaycanda, həm də dünyada bir çox hadisələrə şahidlik etdik. Bəs, başa vurmağa hazırlaşdığımız 2022-ci il təhsil sahəsində hansı hadisələrlə yadda qalacaq?**



## Aktual

### Bu il tələbə adı qazananların sayı artıb

**Qeyd edə ki, statistik məlumatlara görə, 2022-2023-cü tədris ilində 48 780 nəfər tələbə adını qazanıb. Bu ötən tədris ili ilə müqayisədə 11,3 faiz çoxdur.**

Ötən tədris ilində bu rəqəm 43 828 nəfər təşkil edib. Eyni zamanda, 2022-ci ildə peşə təhsilinə tələbə qəbulu üçün 93 500 müraciət daxil olub, 19 043 nəfər tələbə adını qazanıb. Ötən illə müqayisədə qəbul olunan şəxslərin sayı 14 faiz artıb. Ötən il 16 594 nəfər tələbə adını qazanıb.

2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsili müəssisəsində 17 ixtisas üzrə tələbə qəbulu həyata keçirilib və 820 nəfər tələbə adını qazanıb. Hazırda respublika üzrə 1 466 tələbə yüksək texniki peşə təhsili səviyyəsində təhsil alır. 2022-2023-cü tədris ili üzrə ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrində 110 ölkədən 8 900-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs təhsil alır. Bu da ötən ilə (7 332 nəfər) nisbətdə 20 faiz, 2015/16-cı tədris ilinə (4 326 nəfər) nisbətdə isə 103 faiz artım deməkdir.

### Xaricdə təhsillə bağlı yeni Dövlət Proqramı qüvvəyə minib

**Bu il təhsil sahəsində baş verən ən önəmli hadisələrdən biri də "2022-2026-cı illər üçün Dövlət Proqramı"na ilk qəbulun aparılması oldu. Qeyd edək ki, Dövlət Proqramına dünyanın 30 ölkəsinə aid 15 prioritet ixtisas sahələri daxildir.**

Dövlət Proqramının hədəf göstəricisi 2022-2026-cı illərdə hər il 400 nəfərədək olmaqla, ümumilikdə isə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin təmin edilməsidir. Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə edəcək. Bundan başqa 2022-2023-cü tədris ilində Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində ümumilikdə 211 tələbə dünyanın 7 müxtəlif ölkəsinə aid 44 ali təhsil müəssisəsində təhsil almaq hüququ qazanıb. 2021-2022-ci tədris ilində isə ümumilikdə 200 nəfərə yaxın tələbə dünyanın 6 müxtəlif ölkəsində 41 ali təhsil müəssisəsində xaricdə təhsil almaq hüququ qazanmışdı.

### Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyinə çevrildi

**Qeyd edək ki, Azərbaycanda elm və təhsil sahəsinin vahid qurum tərəfindən koordinasiya edilməsi vaxtaşırı müzakirə olunan mövzulardan biri idi. Bu məsələ nəhayət ki, 2022-ci ildə öz həllini tapdı.**

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Təhsil Nazirliyinin adı dəyişdirilərək, Elm və Təhsil Nazirliyinə çevrildi. Nəticədə elm sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər bu nazirliyə həvalə edildi. Nazirliyin yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin yaradılması nəzərdə tutulur ki, bu da gözlənilən idi. Yadda qalan ən əsas hadisələrdən biri də zamanın tələblərindən biri olan Regional Təhsil İdarələrinin yaradılması idi.

### Müəllimlərin sertifikasiyasına başlanıldı

**Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq məhz bu ildən orta ümumtəhsil məktəblərində çalışan müəllimlərin sertifikasiya imtahanına başlanıldı.** Bu sınaqda uğurla çıxanların maaşlarına müvafiq olaraq 35 faiz və 10 faiz əlavələr edildi. Prosesin növbəti ildə də davam etdirilməsi gözlənilir.

### 29 ildən sonra azad Ağalıda ilk zəng

**Hazırda işğaldan azad edilmiş ərazilərdə infrastruktur layihələri uğurla reallaşdırılmaqdadır. Bu layihələrin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.**

O cümlədən təhsil infrastrukturu da müvəffəqiyyətlə qurulur, yeni məktəblərin təməli qoyulur. Ərazilərimizi işğal altında saxladığı 30 il müddətində vandal düşmən təhsil müəssisələrini də tamamilə dağıdıb. Statistikaya əsasən, bu torpaqlarımızda işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 müəssisə fəaliyyət göstərib.

Azərbaycan güclü iqtisadiyyatının hesabına Böyük qayıdış prosesinə start verib və ilk olaraq zəngilanlıların doğma torpaqlarına qayıdışı baş tutub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanın Ağalı kəndində məhz bu ilin sentyabrında yeni məktəb binası istifadəyə verilib. Məktəbdə 29 ildən sonra ilk zəng çalınıb. Ağalı məktəbi yeni və müasir texnologiyalarla təchiz edilib. Dövlət tərəfindən gənclərimizin savadlı, vətənpərvər ruhda yetişdirilməsi üçün bütün şərait yaradılıb. 360 şagird yerlik ikimərtəbəli məktəbdə təhsil almaq üçün 65 şagird qeydiyyatdan keçib. 2022-2023-cü tədris ilində şagirdlərin təlim-tərbiyəsi ilə 14 müəllim məşğul olur. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tikilən məktəb geniş ərazini əhatə edir. Məktəbin birinci mərtəbəsinin sahəsi 1619,5 kvadratmetr, ikinci mərtəbəsinin sahəsi isə 1044,1 kvadratmetr, texniki döşəməaltı mərtəbənin sahəsi 1017,4 kvadratmetr olmaqla, ümumi sahəsi 3681 kvadratmetr təşkil edir. Məktəbin birinci mərtəbəsində direktor, müəllimlər, müavin otaqları, tibb məntəqəsi, 2 texniki, 2 texnologiya, ibtidai siniflər üçün 4 sinif otağı, geniş, təmiz və işıqlı yemək zalı və bufet, qapalı idman zalı, oğlanlar və qızlar üçün ayrı olmaqla soyunub-geyinmə və duş otaqları, məşqçi otağı, hərbi hazırlıq otağı düzəldilib.

İkinci mərtəbədə isə 9 sinif otağı, informatika otağı, biologiya, kimya laboratoriyaları, kitabxana və oxu zalı, geniş və işıqlı akt zalı və digər otaqlar yerləşir. Məktəbin həyətində geniş və müasir tələblərə cavab verən idman meydançası yaradılıb. Bütün sinif otaqları və akt zalı "ağıllı lövhə"lər və akustik səs sistemi ilə təchiz olunub. Siniflərdə, akt zalında və dəhlizdə kameralar quraşdırılıb.

✍ Sevinc

# "Bakcell"dən nəqliyyat üçün ağıllı həllər




**"Bakcell" şirkəti korporativ abunəçilərinə nəqliyyat vasitələri üçün ağıllı həllərdən istifadə etmək imkanı yaradır. "GPS+" adlanan bu yeni xidmət şirkət və təşkilatlara məxsus nəqliyyat vasitələrinin GPS izlənməsini təmin edir.**

Xidmətə qoşulan korporativ abunəçilər nəqliyyat üçün nəzərdə tutulan ağıllı həllərdən istifadə etməklə onun yerləşdiyi yer, sürəti, yanacaq sərfiyyatı, işləmə rejimi və səyahət etdiyi məsafəyə 24 saat ərzində nəzarət edə biləcəklər.

Monitorinq korporativ avtomobillərə quraşdırılan GPS avadanlığı vasitəsilə həyata keçirilir. Xidmət barədə ətraflı məlumat üçün https://business.bakcell.com/az/smart-solutions-for-transport səhifəsinə daxil olun.

Bakcell şirkəti müxtəlif sahələrdə fəaliyyət göstərən korporativ abunəçilərini üstün mobil rabitə xidmətləri və texnoloji həllərlə təmin edir. 2022-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

# 2022-də onları itirdik...

***Artıq 2022-ci ilin sonuna yaxınlaşırıq. Bir neçə gündən sonra 2022-ci il öz yerini növbəti ilə ötürəcək. Bu il ölkəmizin ictimai-siyasi, mədəni həyatında bir çox hadisə baş verdi. Bu il həm də bir çox tanınmış şəxs əbədiyyətə qovuşdu. "Həftə içi" qəzeti 2022-ci ildə vəfat edən tanınmış şəxslərin siyahısını təqdim edir:***

## Anım



**Novruz Qartal**

Bu ilin ilk itkisi Əməkdar artist, aktyor Novruz Qartal oldu. "Gülüş sanatoriyası", "Qəzəlxan", "Şirbalanın məhəbbəti" və s. ekran işlərində rol alan sənətçi 8 yanvarda 74 yaşında xərçəng xəstəliyindən vəfat etdi.

**Əlibaba Məmmədov**



Fevralın 25-də Azərbaycan xanəndəsi, bəstəkar, Azərbaycan Xalq artisti Əlibaba Məmmədov 92 yaşında vəfat edib. Əlibaba Məmmədov musiqi təhsilini 1953-1958-ci illərdə Azərbaycan Dövlət Musiqi Məktəbində xanəndə Seyid Şuşinskinin sinfində alıb. 1945-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti, 1978-1988-ci illərdə "Azkonsert birliyi"nin solisti olub. O, 100-dən artıq mahnı və təsniflər yaradıb ki, onlar xanəndələrin repertuarlarına daxil edilib. Xanəndənin xidməti dövlətimiz tərəfindən yüksək dəyərləndirilib. O, Azərbaycan SSR Əməkdar artisti (18 may 1963), Azərbaycan SSR Xalq artisti (17 may 1989) fəxri adları, "Şöhrət" ordeni (4 fevral 2000), "Qızıl çinar" beynəlxalq mükafatı (10 may 2009"), "İstiqlal" ordeni (3 fevral 2010), "Şərəf" ordeni (4 fevral 2020) mükafatlarına layiq görülüb.

**Ayaz Mütəllibov**



Azərbaycan Respublikasının ilk Prezidenti Ayaz Mütəllibov 2022-ci ildə 84 yaşında vəfat edib. Uzun sürən xəstəlikdən sonra dünyasını dəyişən sabiq prezident Birinci Fəxri Xiyabanda torpağa tapşırıldı.

**Rəhim Rəhimli**



2022-ci ildə ölümü ilə pərəstişkarlarını məyus edən və ən çox müzakirə olunanlardan biri müğənni və bəstəkar Rəhim Rəhimli oldu. Sənətçi sentyabrın 30-da 45 yaşında ağır xəstəlikdən vəfat edib. Çoxsaylı klipləri və mahnıları ilə tanınan bəstəkar Bülbülə qəbiristanlığında dəfn olunub.

**Firəngiz Rəhimbəyli**



Vətəndən kənarda yaşayan, estrada musiqilərinin misilisiz ifaçısı, "Bəxt üzüyü" filimində canlandırdığı Sevda obrazı ilə yaddaşlarda iz buraxan aktrisa Firəngiz Rəhimbəyli 16 avqustda əbədiyyətə qovuşub. 62 yaşında ölkədən kənarda - ABŞ-də gözlərini həyata yuman aktrisanın ölüm səbəbi isə ürəktutması olub.

**Ruhəngiz Qasımova**



Vətəndən kənarda dünyasını dəyişən sənətkarlarımızdan biri də bəstəkar, Əməkdar artist Ruhəngiz Qasımova olub. O, oktyabrın 9-da 82 yaşında Honkonqda vəfat edib. Ruhəngiz Qasımova Bəstəkarlar İttifaqının üzvü, Prezident təqaüdçüsü idi. Uzun müddət Azərbaycan Dövlət Televiziyasında və radiosunda səs rejissoru, bəstəkar kimi çalışıb.

**Rüstəm İbrahimbəyov**



Azərbaycan yazıçısı, nasir, dramaturq, ssenarist, prodüser və kinorejissor, Xalq yazıçısı Rüstəm İbrahimbəyov isə bu ilin 11 martında uzun sürən xəstəlikdən sonra 83 yaşında Moskvada vəfat edib. 16 martda nəşi Bakıya gətirilən sənətkar Birinci Fəxri Xiyabanda dəfn olunub.

**Fazil Məmmədov**



Azərbaycanın keçmiş vergilər naziri Fazil Məmmədov noyabrın 4-də Türkiyədə 58 yaşında 2000-2017-ci illərdə vergilər naziri vəzifəsində çalışıb, 2007-2018-ci illərdə Azərbaycan Güləş Federasiyasının prezidenti olub.

**Sevda İbrahimova**



Tanınmış bəstəkar, Azərbaycanın Xalq artisti, professor Sevda İbrahimova 17 iyulda 83 yaşında dünyasını dəyişib.

**Süleyman Abdullayev**



Əməkdar artist, məşhur xanəndə Süleyman Abdullayev (Dədə Süleyman) oktyabrın 23-ü vəfat edib. Süleyman Abdullayev uzun müddət şəkərli diabet xəstəliyindən əziyyət çəkirdi.

✍ *Sevinc*

# "Bakcell" jurnalistlər üçün seminar keçirib ®




**"Bakcell" şirkəti jurnalistlər və blogerlər üçün "Mobil telekommunikasiya: son nailiyyətlər və yeni texnologiyalar" mövzusunda iki günlük seminar təşkil edib.**

Mobil rabitəyə həsr olunmuş bu ənənəvi seminarın əsas məqsədi telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, rəqəmsallaşdırma, innovasiyalar və son tendensiyalar barədə mətbuat nümayəndələrinin və blogerlərin məlumatlılığını artırmaqdır.

Tədbirdə ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-dan çox jurnalist və bloger iştirak edib.

Bakcell əməkdaşlarının iştirakı ilə seminar çərçivəsində "eSIM texnologiyası", "B2B ekosistemi və onun bazara təsiri", "VoLTE texnologiyası", "Mobil rabitə şəbəkəsinin iş prinsipi", "Qarabağda Bakcell şəbəkəsinin qurulması və genişlənməsi", "Qlobal telekommunikasiya trendləri: süni intellekt", "Korporativ sosial məsuliyyət strategiyası və onun cəmiyyətə faydası" kimi mövzular üzrə təqdimatlar və interaktiv sessiyalar keçirilib.

Şirkət nümayəndələri jurnalistlərin telekommunikasiya sənayesi və yeni texnologiyalara aid suallarını cavablandırıb, fikir mübadilələri və müzakirələr aparıblar.

Qeyd edək ki, Bakcell 2015-ci ildən başlayaraq hər il davamlı olaraq mətbuat üçün mobil telekommunikasiyaya həsr olunmuş seminarlar təşkil edir.

# Vətən müharibəsi şəhidinin övladı Azərbaycan çempionu oldu

**Vətən müharibəsi şəhidinin övladı Azərbaycan çempionu olub. Bu barədə hafta.az-a Azərbaycan Kapoeyra Federasiyasından məlumat verilib. Məlumatda bildirilir ki, federasiyanın 15 illiyinə həsr olunmuş Kapoeyra üzrə Respublika Birincliyi başa çatıb.**



Azərbaycan Kapoeyra Federasiyası və Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi yarışlarda müxtəlif klublardan 200-ə yaxın yeniyetmə bacarıqlarını nümayiş etdirib. 13-15 yaşlı idmançıların birinciliyində Şahin Xurşudov bütün rəqiblərindən üstün olaraq Azərbaycan çempionu adına laqyiq görülüb. Gənc çempionumuz 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olmuş kiçik çavuş Nazir Xurşudovun oğludur.

Qeyd edək ki, Şahin Xurşudov Kapoeyra idman növü ilə ilk dəfə 2021-ci ildə Şəhid övladları üçün təşkil edilmiş "Qaliblər Düşərgəsi"ndə məşqul olmağa başlayıb.

# Pele ailəsi və dostları ilə vidalaşdı

**Futbol üzrə üçqat dünya çempionu Pele ailəsi və dostları ilə vidalaşıb. Buna səbəb futbolçunun vəziyyətinin yenidən pisləşməsi olub. "Pele ailəsi və dostları ilə vidalaşdı.**

Futbol əfsanəsi xərçəng xəstəliyinə qarşı mübarizəni yavaş-yavaş uduzur", - deyə britaniyalı iş adamı, idman meneceri Frenk Xalid Tvitter səhifəsində yazıb.

Qeyd edək ki, 82 yaşlı futbolçu xərçəng xəstəliyindən əziyyət çəkir, böyrək və ürək disfunksiyası səbəbindən reanimasiyadadır.

Bundan əvvəl mətbuatda Pelenin orqanizminin kimyaterapiyaya reaksiya vermədiyi və ona palliativ yardım göstərildiyi yazılmışdı.

## ELAN

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Masallı rayon İcra və Probasiya Şöbəsi. Hərrac 19.01.2023-cü il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 13/01 LOT üzrə İsgəndərov Mehralı İsgəndər oğluna məxsus "İJ 27175" yük markalı 01 BH 455 d.q.n (buraxılış ili: 2007, rəngi ağ, tip furqon) ilkin satış qiyməti - 4500 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi vaxta 3 (üç) iş saatı qalmışa qədər əmlakın ilkin satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

## HƏFTƏ REYTİNQ

### Həftənin HƏDİYYƏSİ



Prezident İlham Əliyev Əməkdar artist Aygün Bəylərə ev hədiyyə edib. İfaçı bunu Xəzər TV-də yayımlanan "Söhbət musiqidən gedir" verilişində öyrənib. Məsələ burasındadır ki, Aygün Bəylər bir neçə il öncə öz solo konsertini təşkil etmək üçün evini girov qoymuşdu. Lakin konsert "Günəşli" yatağında baş verən faciə ilə üst-üstə düşdüyündən bu, baş tutmamışdı. Nəticədə Aygün Bəylər həmin məbləği itirmişdi. "Bu gözəl gündə Heydər Əliyev Fondu və cənab Prezident sizi təbrik edir. Ev sizindir", - aparıcı deyib.

### Həftənin OLAYI



Böyük Britaniya Kralı III Çarlz kiçik qardaşı Şahzadə Endryunu Buhingem sarayından qovub. Buna səbəb hüquq müdafiəçisi Virciniya Cuffrenin Endryu tərəfindən cinsi istismara məruz qalması iddialarıdır. Böyük Britaniya Kralının sözlərinə görə, Şahzadə Krallıq öhdəliklərini yerinə yetirmir. Ona görə də artıq sarayda qala bilməz. Xatırladaq ki, hüquq müdafiəçisi Virciniya Cuffre Kral ailəsinin üzvünü məhkəməyə verərək, onu cinsi təcavüzdə ittiham edib. İkinci Elizabetin oğlu ona 12 milyon avro təzminat ödəyib.

### Həftənin AÇIQLAMASI



"Bakı Dövlət Universitetinin (BDU) diplomunu Vasif Talıbova mən verməmişəm". BDU-nun keçmiş rektoru (1996-1998-ci ildə) Misir Mərdanov bildirib. O, Naxçıvan Ali Məclisinin eks-sədri Vasif Talıbova BDU-nun saxta diplomunu verməsi barədə deyilənlərin doğru olmadığını vurğulayıb. "Mən BDU-da rektor olan zaman 15-16 fakültə, minlərlə tələbə olub. Tələbə təhsil alır, sonra ona diplomu müəssisə verir, rektor diplom vermir. Məncə, Vasif Talıbov universiteti bitirəndə mən artıq təhsil naziri idim. Ona görə də bu iddialar əsassızdır", - Misir Mərdanov əlavə edib.

### Həftənin ÜZÜYÜ



Dekabrın 26-sı Rusiyanın Sankt-Peterburq şəhərində MDB ölkələri liderlərinin qeyri-rəsmi sammiti keçirilib. Rusiya Prezidenti Vladimir Putin sammit iştirakçılarına xüsusi hazırlanmış üzük bağışlayıb. Onların arasında Azərbaycanın dövlət başçısı da var. Məlumata görə, ağ və sarı qızıl metala bənzəyən hər üzüyün üzərində MDB-nin simvolu və "2023-cü iliniz mübarək" sözləri yer alıb. Bununla yanaşı, üzüklərdə sammitin keçirildiyi Rusiyanın da adı qeyd olunub.

### Həftənin CASUSU



"Bizdə olan məlumata görə, onlar Qərb kəşfiyyat orqanlarına işləyirlər". Bu barədə Federal Təhlükəsizlik və Korrupsiyaya Qarşı Mübarizə Layihəsinin rəhbəri Vitali Borodin məlumat yayıb. Borodin bildirib ki, Rusiyanın Xalq artisti Alla Puqaçova, rusiyalı rep ifaçısı Morqenştern, jurnalist Yuri Dud Qərb kəşfiyyat orqanlarına işləyirlər: "Hazırda onların Qərb ölkələri ilə əlaqəsini sübut edəcək rəsmi sənədlərin əlimizə keçməsini gözləyirik". Qeyd edək ki, Puqaçova ailəsi ilə birlikdə İsrailə köçüb.

### Həftənin QONORARI



Məşhur amerikalı müğənni Beyonse 4 ildən sonra yenidən konsert verəcək. Müğənni Dubayda səhnəyə çıxacaq. Onun bu konsert üçün təxminən 41 milyon 106 min manat qonorar alacağı bildirilir. Qeyd edək ki, konsert yanvarın 21-ə planlaşdırılıb.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**94-cü Oskar Mükafatları mərasimində Uill Smitin Kris Roku vurması anı ilin fotosu seçildi**

# Azərbaycan sülhdə maraqlı tərəfdir

**Fərid Şəfiyev,**
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri

Yaxın Şərqdəki erməni diasporu haqqında tezliklə məruzəmiz olacaq. Biz Fransada, Rusiyada və Argentinada erməni diasporu ilə bağlı müfəssəl araşdırma aparmışıq.

▸▸ Səh. 2

## STATİSTİKA



**■ Bank sistemi üzrə dövriyyədə olan ödəniş kartlarının sayı noyabr ayının sonunda ötən aya nisbətən 152 min ədəd artaraq 13 milyon 132 min ədəd təşkil edib.**

Keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 20,9 faiz artıb. Ödəniş kartlarında artım debet kartları üzrə 20,1 faiz, kredit kartları üzrə 26,6 faiz olub. Ötən ilin müvafiq dövrünə nəzərən əməkhaqqı kartlarının sayı 186 min, kredit kartları 364 min, digər kartlar isə 1,7 milyon ədəd artıb.



▸▸ Səh. 7

# Bahalaşma, inflyasiya...